Azfen B.M.

Maliyyə Hesabatları

31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə
müstəqil auditorun hesabatı ilə birlikdə

Mündəricat

Müstəqil auditorun hesabatı

Maliyyə hesabatları

Maliyyə vəziyyəti haqqında hesabat 1
Mənfəət və ya zərər və ümumi gəlir haqqında hesabat 2
Kapitalda dəyişikliklər haqqında hesabat 3
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat 4

Maliyyə hesabatlarına dair qeydlər

1. Şirkət haqqında məlumat 5
2. Mühasibat uçotu prinsiplərində dəyişikliklər 6
3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı 11
4. Mühüm mühasibat uçotu mühakimələri və qiymətləndirmə qeyri-müəyyənliyinin əsas mənbələri 20
5. Dividendlər 21
6. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və məhdudlaşdırılmış pul vəsaitləri 21
7. Ticarət debitor borcları 22
8. Əlaqəli tərəflə əməliyyatlar 23
9. Mal-material ehtiyatları 25
10. Digər debitor borcları və digər cari aktivlər 25
11. Kreditor borcları 25
12. Digər kreditor borcları və hesablanmış xərclər 25
13. Əsas vəsaitlər 26
14. Qeyri-maddi aktivlər 27
15. Gəlirin vergiyə cəlb olunması 27
16. Nizamnamə fondu 29
17. Müştərilərlə müqavilələrdən əldə edilən gəlirlər 30
18. Müqavilə xərcləri 31
19. İnzibati xərclər 31
20. Xarici valyuta mövqeyi 32
21. Təəhhüdlər və əməliyyat mühiti 32
22. Maliyyə riskinin idarə edilməsinin məqsəd və prinsipləri 33
23. Hesabat dövründən sonra baş vermiş hadisələr 35

Building a better working world

Ernst & Young Holdings (CIS) B.V.
Port Baku Towers Business Centre
South Tower, 9th floor,
153, Neftchilar Ave.
Baku, AZ1010, Azerbaijan
Tel: +994 (12) 490 70 20
Fax: +994 (12) 490 70 17
www.ey.com/az

Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Port Baku Tauers Biznes Mərkəzi
Cənub Qülləsi, 9-cu mərtəbə
Neftçilər prospekti, 153
Bakı, AZ1010, Azərbaycan
Tel: +994 (12) 490 70 20
Faks: +994 (12) 490 70 17

Müstəqil auditorun hesabatı

Azfen B.M. Birgə müəssisəsinin Direktorlar Şurasına

Rəy

Biz Azfen B.M.-in ("Birgə müəssisə") 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər və digər ümumi gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsiplərinin icmalı da daxil olmaqla maliyyə hesabatlarına dair qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən maliyyə hesabatları 31 dekabr 2018-ci il tarixinə Birgə müəssisənin maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın "Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti" bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin etika məcəlləsi"nə ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz Birgə Müəssisədən müstəqilik və biz MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

Maliyyə hesabatları üçün rəhbərliyin və Direktorlar Şurasının məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin lazım bildiyi daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Birgə müəssisəni ləğv etmək və ya əməliyyatları dayandırmaq niyyəti olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Birgə müəssisənin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi qabiliyyətinin qiymətləndirilməsinə, daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətlə bağlı məsələlərin (belə məsələlər varsa) açıqlanmasına və mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Direktorlar Şurası Birgə müəssisənin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

Building a better working world

Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti

Bizim məqsədimiz ümumiyyətlə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürülməklə hazırkı maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi olaraq biz audit zamanı peşəkar mühakimə və peşəkar skeptisizm tətbiq edirik. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələşdirir və həyata keçirir, eləcə də rəyimiz üçün əsas yaratmaq məqsədilə kifayət və münasib olan audit sübutunu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki fırıldaqçılığa gizli sözləşmə, saxtakarlıq, bilərəkdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.
- Müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Birgə müəssisənin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş uçot prinsiplərinin münasibliyini, uçot təxminlərinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının tətbiqinin münasibliyi və əldə edilmiş audit sübutlarına əsaslanaraq Birgə müəssisənin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi ilə bağlı əhəmiyyətli şübhə doğuran hadisə və ya şəraitlərlə əlaqədar mühüm qeyri-müəyyənliyin olub-olmaması haqqında nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gələcəyimiz halda, biz auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqəti yönəltməliyik və ya, əgər bu cür açıqlamalar qeyri-münasib olarsa, rəyimizə düzəliş etməliyik. Bizim nəticələr audit hesabatımızın tarixinədək əldə etdiyimiz audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və ya şəraitlər Birgə müəssisənin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməməsinə gətirib çıxara bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla maliyyə hesabatlarının ümumi təqdimatı, strukturu və məzmununu, eləcə də maliyyə hesabatlarının müvafiq əməliyyat və hadisələri düzgün təqdim edib-etmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi, vaxtı və əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə hər hansı əhəmiyyətli çatışmazlıqları tərəfimizdən müəyyən olunduğu halda Direktorlar şurasının nəzərinə çatdırmalıyıq.

Ernst & Young Holdings (CIS) B.V.

14 iyun 2019-cu il

Bakı, Azərbaycan

31 dekabr 2018-ci il tarixinə

Maliyyə vəziyyəti haqqında hesabat

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

	Qeydlər	31 dekabr 2018-ci il	31 dekabr 2017-ci il
Aktivlər			
Cari aktivlər			
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	6	26,864,742	67,761,936
Məhdudlaşdırılmış pul vəsaitləri	6	1,269,165	1,293,216
Ticarət debitor borcları	7	40,098,791	112,136,722
Müqavilə aktivləri	17	44,616,250	–
Cari tikinti müqavilələri üzrə debitor borcları		–	10,598,634
Tamamlanmamış işlər		2,195,272	–
Mal-material ehtiyatları	9	26,947,479	26,811,949
Cari mənfəət vergisi üzrə avans ödənişləri	15	17,966,741	7,486,232
Digər debitor borcları və digər cari aktivlər	10	8,110,675	15,076,869
Cəmi cari aktivlər		**168,069,115**	**241,165,558**
Uzunmüddətli aktivlər			
Əsas vəsaitlər	13	19,267,661	25,564,898
Qeyri-maddi aktivlər	14	984,102	411,555
Təxirə salınmış vergi aktivləri	15	–	6,112,994
Cəmi uzunmüddətli aktivlər		**20,251,763**	**32,089,447**
Cəmi aktivlər		**188,320,878**	**273,255,005**
Öhdəliklər və kapital			
Cari öhdəliklər			
Ticarət kreditor borcları	11	29,051,542	72,840,302
Cari tikinti üzrə aralıq ödənişlər		–	26,356,341
Digər kreditor borcları və hesablanmış xərclər	12	29,421,411	32,235,061
Cəmi cari öhdəliklər		**58,472,953**	**131,431,704**
Təxirə salınmış vergi öhdəlikləri	15	1,627,198	–
Cəmi uzunmüddətli öhdəliklər		**1,627,198**	**–**
Kapital			
Nizamnamə kapitalı	16	276,885	276,885
Bölüşdürülməmiş mənfəət		127,943,842	141,546,416
Cəmi kapital		**128,220,727**	**141,823,301**
Cəmi öhdəliklər və kapital		**188,320,878**	**273,255,005**

Rəhbərlik adından maliyyə hesabatlarını imzalayan və buraxılmasına icazə verənlər:

"AZFEN" birgə müəssisəsi "AZFEN" joint venture AZFEN

Həmid Həsənov,
Baş Direktor

14 iyun 2019-cu il

Ali Özcan,
Maliyyə üzrə Baş Direktorun müavini

14 iyun 2019-cu il

Əlavə olunmuş qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir.

31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə

Mənfəət və ya zərər və ümumi gəlir haqqında hesabat

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

	Qeydlər	31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə	31 dekabr 2017-ci il tarixində başa çatan il üzrə
Müqavilə gəlirləri	17	512,387,767	797,578,020
Müqavilə xərcləri	18	(394,259,519)	(554,332,832)
Ümumi mənfəət		**118,128,248**	**243,245,188**
İnzibati xərclər	19	(5,702,016)	(6,531,181)
Məzənnə fərqi üzrə gəlir/(zərər), xalis		338,334	(16,587,036)
Maliyyə gəliri		503,241	457,559
Digər gəlir/(zərərlər), xalis		612,776	(369,158)
Vergidən əvvəl mənfəət		**113,880,583**	**220,215,372**
Mənfəət vergisi xərci	15	(12,260,933)	(40,381,753)
İl üzrə mənfəət		**101,619,650**	**179,833,619**
Digər ümumi gəlir		–	–
Cəmi ümumi gəlir		**101,619,650**	**179,833,619**

Əlavə olunmuş qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir.

31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə

Kapitalda dəyişikliklər haqqında hesabat

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

	Qeydlər	Nizamnamə kapitalı	Bölüşdürülməmiş mənfəət	Cəmi kapital
1 yanvar 2017-ci il tarixində		**276,885**	**162,376,940**	**162,653,825**
İl üzrə mənfəət		-	179,833,619	**179,833,619**
Cəmi ümumi gəlir		**-**	**179,833,619**	**179,833,619**
Elan edilmiş dividendlər	5	-	(200,664,143)	**(200,664,143)**
31 dekabr 2017-ci il tarixində		**276,885**	**141,546,416**	**141,823,301**
İl üzrə mənfəət		-	101,619,650	**101,619,650**
Cəmi ümumi gəlir		**-**	**101,619,650**	**101,619,650**
Elan edilmiş dividendlər	5	-	(115,222,224)	**(115,222,224)**
31 dekabr 2018-ci il tarixində		**276,885**	**127,943,842**	**128,220,727**

Əlavə olunmuş qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir.

31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

	Qeydlər	31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə	31 dekabr 2017-ci il tarixində başa çatan il üzrə
Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti			
Vergilərdən əvvəl mənfəət		113,880,583	220,215,372
Vergidən əvvəl mənfəəti xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirmək məqsədilə aparılmış təshihlər			
Əsas vəsaitlərin köhnəlməsi	13	10,437,394	10,997,517
Qeyri-maddi aktivlərin amortizasiyası	14	97,605	42,186
Əsas vəsaitlərin silinməsindən zərər	13	321,676	245,245
Qeyri-maddi aktivlərin silinməsindən zərər	14	44,180	179,490
İstifadə olunmamış məzuniyyət üçün ehtiyatın qaytarılması		(4,709,606)	(4,693,282)
Məzənnə fərqi üzrə gəlir, xalis		-	(214,814)
Maliyyə gəliri		(503,241)	(457,559)
Gözlənilən kredit zərəri		274,416	-
Dövriyyə kapitalına təshihlər			
Məhdudlaşdırılmış pul vəsaitlərində azalma/(artma)		24,051	(1,293,216)
Ticarət debitor borclarında azalma		71,870,822	69,657,438
Mal-material ehtiyatlarında artma		(135,530)	(18,830)
Tamamlanmamış işlərdə artma		(2,195,272)	-
Müqavilə aktivlərində artma		(44,661,235)	-
Cari tikinti müqavilələri üzrə debitor borclarında azalma		10,598,634	42,698,174
Cari tikinti üzrə aralıq ödənişlərdə azalma		(26,356,341)	(19,658,022)
Digər debitor borclarında və digər cari aktivlərdə azalma/ (artma)		6,966,194	(1,988,894)
Kreditor borclarında azalma		(43,788,760)	(17,496,049)
Digər kreditor borclarında və hesablanmış xərclərdə (azalma)/artma		(10,696,637)	9,445,817
Əməliyyat fəaliyyəti üzrə daxil olan pul vəsaitləri		**81,468,933**	**307,660,573**
Ödənilmiş mənfəət vergisi		(15,001,250)	(71,895,514)
Əməliyyat fəaliyyəti üzrə əldə edilmiş xalis pul vəsaitləri		**66,467,683**	**235,765,059**
İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti			
Əsas vəsaitlərin alınması	13	(4,461,833)	(3,404,550)
Qeyri-maddi aktivlərin alınması	14	(714,332)	(71,995)
Alınmış faiz		503,241	457,559
İnvestisiya fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitləri		**(4,672,924)**	**(3,018,986)**
Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin hərəkəti			
Ödənilmiş dividendlər	5	(102,629,631)	(216,844,699)
Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitləri		**(102,629,631)**	**(216,844,699)**
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis (azalma)/artma		**(40,834,872)**	**15,901,374**
Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri üzrə gözlənilən kredit zərəri	6	(62,322)	-
İlin əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri		67,761,936	51,860,562
İlin sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	6	**26,864,742**	**67,761,936**

Əlavə olunmuş qeydlər maliyyə hesabatlarının tərkib hissəsidir.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

1. Şirkət haqqında məlumat

Azfen B.M. ("Birgə müəssisə") 11 yanvar 1996-cı il tarixində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ("SOCAR") və Türkiyə Respublikasının Tekfen İnşaat və Təsisat A.Ş ("Tekfen") tərəfindən, müvafiq olaraq, 60% və 40% iştirak payları ilə birgə müəssisə formasında yaradılmışdır. Birgə Müəssisə ilkin olaraq Azərbaycan Respublikasında tikinti, mühəndislik və əlaqəli işlərin, xüsusilə, SOCAR və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin ("ABƏŞ") neft maraqlarına aid işlərin görülməsi məqsədi üçün təsis edilmişdir.

Birgə Müəssisə Bakıda yerləşir və il ərzində orta hesabla 3,613 (2017-ci il: 6,642) işçisi olmuşdur.

Birgə Müəssisənin qeydiyyata alınmış ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1001, İstiqlaliyyət küç.31.

Cari layihələr

Cənubi Qafqaz Boru Kəmərinin Tikintisi ("CQBKT") – ("AZF-088")

CQBKT ilə əlaqədar işlərə tikinti, mühəndislik və idarəetmə xidmətləri daxil olub, tamamlanması 2019-cu ilin birinci rübündə planlaşdırılır.

BP Exploration (Caspian Sea) Limited – ("AZF-090")

Layihəyə BP Exploration (Caspian Sea) Limited şirkətinə Səngəçal terminalı, AMEC-TEKFEN-AZFEN ("ATA") Tikinti sahəsində və Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi ("CQBKG") infrastrukturunda həyata keçirdiyi əməliyyatlara dəstək məqsədilə tələb üzrə səriştəli, ixtisaslı istismara verilmə üzrə texniklərin təmin edilməsi daxildir. Layihə 2018-ci ildə tamamlanmışdır.

BP Exploration (Caspian Sea) Limited – ("AZF-091")

İşlərin həcmi Qərb İxrac Boru Kəmərinin seksiyalarının əvəz edilməsi ilə bağlıdır. Layihə 2017-ci ildə başlamışdır və layihənin təqribən 98%-i 2018-ci ilin sonunadək başa çatdırılmışdır.

WorleyParson Europe Limited – ("AZF-093")

İşin həcmi boru direklərinin hazırlanması, quruda quraşdırma və müxtəlif dəstək xidmətləri ilə bağlıdır. Layihə 2018-ci ildə başa çatdırılmışdır.

Heydər Əliyev adına Neft Emalı Zavodu – ("AZF-094")

2018-ci ildə Birgə Müəssisə SOCAR-ın əlaqəli tərəfi olan Heydər Əliyev adına Neft Emalı Zavodu ilə bitum qurğusunun, LPG doldurma məntəqəsinin tikintisi və sahənin hazırlanması üzrə yeni müqavilələr imzalamışdır. Layihənin başa çatdırılması 2019-cu il ərzində planlaşdırılır.

Technip Italy S.p.A. – ("AZF-095")

Birgə müəssisənin Technip Italy S.p.A ilə Azerkimiya İstehsalat Birliyinin etilen zavodunda subkontrakt işləri üçün cari müqavilələri mövcuddur. Layihənin tamamlanması 2020-ci ildə planlaşdırılır.

BP (Eksploreyşn) Şah Dəniz Limitid – *("AZF-096")*

İşlərin həcmi istismara verilmə və əməliyyatlara dəstək xidmətləri ilə bağlıdır. Layihə 2018-ci ildə başlamışdır və işlər tələbə əsasən həyata keçirilir.

BP (Eksploreyşn) Kaspian Si Limitid – ("AZF-097")

Layihə Azərbaycanda istehsal, tikinti, alətlərə nəzarət, elektrik enerji sisteminin təmiri xidmətlərinin göstərilməsi ilə bağlıdır.

BP (Eksploreyşn) Kaspian Si Limitid – *("AZF-098")*

Layihə Gürcüstanda mülki/struktur tikinti, mexaniki istehsal, mexaniki tikinti, alətlərə nəzarət, elektrik enerji sisteminin təmiri xidmətlərinin göstərilməsi ilə bağlıdır.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

2. Mühasibat uçotu prinsiplərində dəyişikliklər

2.1 Yeni və düzəliş edilmiş standartlar və şərhlər

MHBS 1 yanvar 2018-ci il tarixindən qüvvəyə minmiş aşağıdakı düzəlişlər istisna olmaqla, qəbul olunmuş mühasibat uçotu prinsipləri əvvəlki maliyyə ilinin prinsipləri ilə uyğunluq təşkil edir:

15 saylı MHBS "Müştərilərlə müqavilələrdən əldə edilmiş gəlirlər"

15 saylı MHBS 11 saylı *"Tikinti müqavilələri"* adlı MUBS, 18 saylı *"Gəlirlər"* adlı MUBS və əlaqəli şərhləri əvəz edir və məhdud sayda istisnalar olmaqla müştərilərlə müqavilələrdən irəli gələn bütün gəlirlərə tətbiq edilir. 15 saylı MHBS müştərilərlə müqavilələrdən irəli gələn gəlirlərə tətbiq ediləcək 5 mərhələli modeli tətbiq edir. 15 saylı MHBS-yə görə gəlirlər müəssisənin müştəriyə göndərdiyi mallar və ya xidmətlər əvəzində alınması gözlənilən vəsaiti əks etdirən məbləğdə tanınır.

15 saylı MHBS müəssisələrdən müştərilərlə müqavilələrə modelin hər bir mərhələsini tətbiq edərkən bütün müvafiq fakt və şəraitləri nəzərə almaqla mühakimə işlətməyi tələb edir. Bundan əlavə standart müqavilənin əldə edilməsi ilə bağlı artan xərclərin və müqavilənin icrası ilə birbaşa əlaqəli olan xərclərin uçot qaydasını müəyyən edir. Bundan əlavə, standart məlumatların daha geniş şəkildə açıqlanmasını tələb edir.

Birgə müəssisə 15 saylı MHBS-ni düzəlişlər edilmiş retrospektiv metodundan istifadə etməklə (yəni, 15 saylı MHBS-nin ilkin tətbiqinin məcmu təsirini (əgər olarsa) 1 yanvar 2018-ci i tarixinə bölüşdürülməmiş mənfəətin açılış balansına düzəliş kimi tanımaqla) qəbul etmişdir.

15 saylı MHBS-nin qəbul edilməsinin Birgə müəssisənin maliyyə hesabatlarına təsiri yalnız davam edən tikinti müqavilələri üzrə debitor borclarının və davam edən aralıq ödəniş hesablarının, müvafiq olaraq müqavilə aktivləri və müqavilə öhdəlikləri kimi yenidən təsnifləşdirilməsinə aiddir. Beləliklə, belə yenidən təsnifləşdirmələrin məcmu təsiri sıfır olmuş və 1 yanvar 2018-ci il tarixinə bölüşdürülməmiş mənfəətin açılış qalığına düzəliş edilməmişdir.

Aşağıdakı cədvəldə hər bir maliyyə hesabatının sətir elementinin 15 saylı MHBS-nin qəbul edilməsi nəticəsində 31 dekabr 2018-ci il tarixinə və bu tarixdə başa çatan il üzrə təsirə məruz qaldığı məbləğlər göstərilir. Birinci sütunda 15 saylı MHBS əsasında hazırlanmış məbləğlər, ikinci sütunda isə 15 saylı MHBS qəbul edilməsəydi məbləğlərin necə olacağını göstərir.

31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabat:

	Aşağıdakı standartlar əsasında hazırlanmış məbləğlər		
	15 saylı MHBS	**Əvvəlki MHBS**	**Artım/(Azalma)**
Cari tikinti müqavilələri üzrə debitor borcları	–	44,616,250	(44,616,250)
Müqavilə aktivləri	44,616,250	–	44,616,250
Qalıq uzunmüddətli aktivlər	123,452,865	123,452,865	–
Cəmi cari aktivlər	**168,069,115**	**168,069,115**	**–**
Cəmi uzunmüddətli aktivlər	**20,251,763**	**20,251,763**	**–**
Cəmi aktivlər	**188,320,878**	**188,320,878**	**–**
Cəmi öhdəliklər və kapital	**188,320,878**	**188,320,878**	**–**

15 saylı MHBS-nin qəbul edilməsinin 31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabata təsiri yoxdur. 15 saylı MHBS-nin qəbul edilməsinin 31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabata təsiri yalnız yuxarıda göstərilən dövriyyə kapitalına düzəlişlərə aiddir. Lakin əməliyyat fəaliyyətində xalis pul vəsaitlərinin hərəkətinə təsir olmamışdır. İnvestisiya və maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin hərəkətinə heç bir təsir göstərilməmişdir.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

2. Mühasibat uçotu prinsiplərində dəyişikliklər (davamı)

2.1 Yeni və düzəliş edilmiş standartlar və şərhlər (davamı)

9 saylı MHBS "Maliyyə alətləri"

9 saylı *"Maliyyə alətləri"* adlı MHBS 1 yanvar 2018-ci il tarixində və ya bu tarixdən sonrakı illik dövrlər üçün 39 saylı *"Maliyyə alətləri: Tanıma və Ölçmə"* adlı MUBS-u əvəz edir və maliyyə alətlərinin bütün üç aspektini: təsnifləşdirmə və ölçmə, dəyərsizləşmə və hedcinq uçotunu bir araya gətirir.

Birgə müəssisə 9 saylı MHBS-i 1 yanvar 2018-ci ildən qəbul etmiş və onu retrospektiv şəkildə tətbiq edərək, müqayisəli rəqəmləri təqdim etməməyi və standartların ilkin tətbiqi tarixinə açılış bölüşdürülməmiş mənfəətdə maliyyə aktivləri və öhdəliklərinin balans dəyərinə hər hansı düzəlişləri tanımamağı seçmişdir. 9 saylı MHBS-nin əhatə dairəsinə daxil olmayan əvvəlki ilin rəqəmləri 39 saylı MUBS-a uyğun təqdim edilmişdir. Birgə müəssisə, 9 saylı MHBS-nin qəbul edilməsindən 1 yanvar 2018-ci il tarixinə birbaşa bölüşdürülməmiş mənfəətdə düzəlişlərin edilməsini tələb edən fərqlərin olmamasını qiymətləndirmişdir. Müqayisəli dövr üçün açıqlamalar keçən il üçün edilən açıqlamalarla eynidir.

Birgə müəssisənin maliyyə öhdəliklərinin təsnifləşdirilməsi və ölçülməsində dəyişikliklər baş verməmişdir.

Bir neçə digər düzəliş və şərtlər 2018-ci ildə ilk dəfə tətbiq edilmiş, lakin Birgə müəssisənin maliyyə hesabatlarına təsir göstərməmişdir. Birgə müəssisə buraxılmış, lakin hələ qüvvəyə minməmiş heç bir standartı, şərhi və ya düzəlişi erkən tətbiq etməmişdir.

2.2 Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni standartlar və düzəlişlər

Buraxılmış, lakin Birgə müəssisənin maliyyə hesabatları buraxıldığı tarixə hələ qüvvəyə minməmiş standartlar aşağıda göstərilir. Təqdim edilmiş standart və şərhlər Birgə müəssisə tərəfindən gələcəkdə tətbiq edilərsə, onun fəaliyyətinə, maliyyə vəziyyətinə və ya əməliyyatlarının nəticələrinə təsir göstərməsi ehtimal edilir. Birgə müəssisə həmin standartlar qüvvəyə mindikdə onları, əgər Birgə müəssisəyə tətbiq oluna bilərsə, qəbul etmək niyyətindədir.

16 saylı MHBS "İcarələr"

16 saylı MHBS 2016-cı ilin yanvar ayında buraxılmış və 17 saylı MUBS *"İcarələr"*, BMHŞK 4 *"Müqavilədə İcarə Əlamətlərinin Mövcudluğunun Müəyyən Edilməsi"* Şərhi, Standartların Şərhi Komitəsinin ("SŞK") 15 saylı *"Əməliyyat icarələri-həvəsləndirmələr"* Standartı və SŞK *"İcarənin hüquqi forması da daxil olmaqla əməliyyatın mahiyyətinin qiymətləndirilməsi"* 27 saylı Standartını əvəz edir. 16 saylı MHBS icarələrin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir və icarəyə götürənlərdən bütün icarələri 17 saylı MUBS əsasında maliyyə icarələrinin uçotu ilə eyni qaydada yeganə balans hesabatı modeli əsasında uçota alınmasını tələb edir. Standarta icarəyə götürənlər üçün iki tanıma istisnası daxildir – "azdəyərli" aktivlərin icarəsi (məsələn şəxsi kompüterlər) və qısamüddətli lizinqlər (məsələn, icarə müddəti 12 aydan çox olmayan icarələr). İcarə başladığı tarixdə icarəyə götürən icarə ödənişlərinin aparılması öhdəliyini (yəni icarə öhdəliyini) və icarə müddəti ərzində müvafiq aktivi istifadə etmək hüququndan ibarət olan aktivi (yəni istifadə hüququ aktivini) tanıyır.

İcarəyə götürənlər icarə öhdəliyi üzrə faiz xərcini və istifadə hüququ aktivi üzrə köhnəlmə xərcini ayrıca tanımalıdırlar. Bundan əlavə icarəyə götürənlər müəyyən hadisələr baş verəndə (məsələn, icarə müddəti dəyişəndə, bu ödənişləri müəyyən etmək üçün istifadə edilən əmsal və dərəcələrdə dəyişikliklər olduğuna görə gələcək icarə ödənişləri dəyişəndə) icarə öhdəliyini yenidən hesablamalıdırlar. İcarəyə götürən ümumiyyətlə icarə öhdəliyinin yenidən hesablanmasını istifadə hüququ aktivinə düzəliş kimi tanımalıdır.

16 saylı MHBS əsasında icarəyə verənin uçotu hazırda 17 saylı MUBS-a uyğun uçot qaydasından əhəmiyyətli fərqlənmir. İcarəyə verənlər bütün icarələri 17 saylı MUBS-da nəzərdə tutulan həmin təsnifata uyğun olaraq təsnif etməyə və iki icarə növünü: əməliyyat və maliyyə icarələrini ayırmağa davam edəcək.

16 saylı MHBS həmçinin icarəyə götürənlərdən və icarəyə verənlərdən 17 saylı MUBS-un tələbləri ilə müqayisədə məlumatların daha geniş açıqlanmasını tələb edir. 16 saylı MHBS 1 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

2. Mühasibat uçotu prinsiplərində dəyişikliklər (davamı)

2.2 Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni standartlar və düzəlişlər (davamı)

Birgə müəssisə 16 saylı MHBS-ni Standartın düzəlişlər edilmiş retrospektiv metodundan istifadə etməklə 1 yanvar 2019-cu il tarixində qəbul etməyi planlaşdırır. Bu yanaşmaya əsasən, 16 saylı MHBS-nin ilkin tətbiqinin məcmu təsiri ilkin tətbiqetmə tarixinə kapitalda düzəliş kimi tanınır və müqayisəli məlumat yenidən təqdim edilmir.

İlkin qiymətləndirməyə əsasən, Birgə müəssisə 16 saylı MHBS-nin qəbul edilməsinin əhəmiyyətli təsir göstərməsini gözləmir.

17 saylı MHBS "Sığorta müqavilələri"

2018-ci ilin may ayında MUBSK tanınma və ölçmə, təqdimat və açıqlanma kimi məsələləri əhatə edən sığorta müqavilələri üzrə ətraflı yeni mühasibat uçotu standartı olan 17 saylı *"Sığorta müqavilələri"* adlı MHBS-ni hazırladı. Qüvvəyə mindikdən sonra 17 saylı MHBS 2005-ci ildə qüvvəyə minmiş 4 saylı *"Sığorta müqavilələri"* adlı MHBS-ni əvəz edəcək. 17 saylı MHBS bütün növ sığorta müqavilələrinə, onları verən müəssisələrin növündən asılı olmayaraq, eləcə də ixtiyari iştirak xüsusiyyətləri olan müəyyən zəmanətlərə və maliyyə alətlərinə tətbiq edilir. Əhatə dairəsi ilə bağlı bir neçə istisna tətbiq edilir. 17 saylı MHBS-nin ümumi məqsədi sığortaçılar üçün daha faydalı və uyğun olan sığorta müqavilələri üçün uçot modelini təqdim etməkdir. Əsas etibarlı ilə ölçmə məqsədləri üçün əvvəlki yerli uçot prinsiplərinə istinad edən 4 saylı MHBS-nin tələblərindən fərqli olaraq, 17 saylı MHBS mühasibat uçotunun bütün müvafiq tərəflərini əhatə edən sığorta müqavilələri üzrə geniş model təqdim edir. 17 saylı MHBS-nin əsasını ümumi model təşkil edir və aşağıdakılarla tamamlanır:

- Birbaşa iştirak xüsusiyyətləri olan müqavilələrin xüsusi uyğunlaşdırılması (dəyişkən haqq yanaşması).
- Sadələşdirilmiş yanaşma (premium bölüşdürmə yanaşması) – əsas etibarı ilə qısamüddətli müqavilələrə.

17 saylı MHBS 1 yanvar 2021-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir, müqayisəli rəqəmlər tələb olunur. Müəssisə, 17 saylı MHBS-ni ilk dəfə tətbiq etdiyi tarixdə və ya bu tarixdən əvvəl 9 saylı MHBS-ni və 15 saylı MHBS-ni tətbiq etdiyi təqdirdə, erkən tətbiq etməyə icazə verilir. Standart Birgə müəssisəyə tətbiq edilmir.

23 saylı MHBŞK şərhi "Mənfəət vergisinin uçotu ilə bağlı qeyri-müəyyənlik"

Bu Şərh, mənfəət vergisinin uçotu 12 saylı MUBS-un tətbiq edilməsinə təsir göstərən qeyri-müəyyənliklərlə bağlı olduğu hallarda verginin uçot qaydasını müəyyən edir, 12 saylı MUBS-un əhatə dairəsindən kənar olan vergilərə və ya tutumlara tətbiq edilmir və qeyri-müəyyən vergi uçotu ilə bağlı faiz və cərimələrə aid tələbləri özündə əks etdirmir.

Şərh xüsusi olaraq aşağıdakı məsələləri əhatə edir:

- Müəssisə qeyri-müəyyən vergi rejimini ayrıca nəzərə alırmı;
- Vergi rejiminin vergi orqanları tərəfindən yoxlanılmasına dair müəssisənin fərziyyələri;
- Müəssisənin vergiyə cəlb olunan mənfəəti (vergi zərərini), vergi bazasını, istifadə edilməmiş vergi zərərlərini, istifadə edilməmiş vergi kreditlərini və vergi dərəcələrini necə müəyyənləşdirir;
- Müəssisənin fakt və şəraitlərdə dəyişiklikləri necə nəzərdən keçirir.

Müəssisə, hər bir qeyri-müəyyən vergi rejimini ayrı-ayrılıqda və ya bir və ya daha çox digər qeyri-müəyyən vergi rejimi ilə birlikdə nəzərdən keçirilməli olub-olmadığını müəyyənləşdirməlidir. Qeyri-müəyyənliyin həlli yollarından qabaqcadan daha çox xəbər verən yanaşma tətbiq edilməlidir. Bu şərh 1 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə tətbiq edilir, lakin müəyyən keçid azadetmələri mümkündür. Birgə müəssisə onun maliyyə hesabatlarına təsir göstəriləcəyini ehtimal etmir.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

2. Mühasibat uçotu prinsiplərində dəyişikliklər (davamı)

2.2 Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni standartlar və düzəlişlər (davamı)

9 saylı MHBS-yə düzəlişlər "Mənfi kompensasiyanı nəzərdə tutan avans ödənişinin növü"

9 saylı MHBS-yə əsasən, borc aləti amortizasiya hesablanmış dəyərlə və ya digər ümumi gəlir vasitəsilə ədalətli dəyərlə o şərtlə qiymətləndirilə bilər ki, müqavilə ilə nəzərdə tutulan pul vəsaitlərinin hərəkəti "yalnız əsas məbləğ və faizin ödənilməsi" (YƏMFÖ) meyarına uyğun olsun və alət bu təsnifləşdirməyə müvafiq olan biznes modeli çərçivəsində saxlanılsın. 9 saylı MHBS-yə düzəlişlər izah edir ki, müqavilənin erkən xitamı ilə nəticələnən hadisə və ya haldan və müqavilənin xitamına görə müvafiq kompensasiyanı hansı tərəfin ödəməsindən asılı olmayaraq, maliyyə aktivi üzrə YƏMFÖ meyarı tətbiq olunur.

Düzəlişlər retrospektiv şəkildə tətbiq edilməlidir və 1 yanvar 2019-cu il tarixindən etibarən qüvvəyə minir. Erkən tətbiqə icazə verilir. Bu düzəlişlər Birgə müəssisənin maliyyə hesabatlarına təsir göstərmir.

10 saylı MHBS-yə və 28 saylı MUBS-a düzəlişlər: "İnvestor və onun asılı tərəfi və ya birgə müəssisəsi arasında satışlar və ya aktivlərin yatırılması"

Bu düzəlişlər asılı tərəfə və ya birgə müəssisəyə yatırılan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı 10 saylı MHBS-nin və 28 saylı MUBS-un tələbləri arasında məlum uyğunsuzluğa aiddir. Düzəlişlər göstərir ki, investor 3 saylı MHBS-də müəyyən edildiyi kimi investor və onun asılı tərəfi və ya birgə müəssisəsi arasında biznes təşkil edən aktivlərin satılması və ya yatırılması üzrə tam gəliri və ya zərəri tanıyır. Keçmiş törəmə müəssisədə saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların həmin keçmiş törəmə müəssisədəki payları müqabilində tanınır. MUBSK bu düzəlişlərin qüvvəyə minməsi tarixini qeyri-müəyyən müddətə təxirə salmış, lakin düzəlişlərin erkən tətbiq edən müəssisə onları perspektiv qaydada tətbiq etməlidir. Bu düzəlişlərin Birgə müəssisəyə təsir göstərməsi gözlənilmir.

19 saylı MUBS-a düzəlişlər: Plana düzəlişin edilməsi, sekvestr və ya hesablaşma

19 saylı MUBS-a düzəlişlər hesabat dövrü ərzində plana düzəlişin edilməsi, sekvestr və ya hesablaşma zamanı aparılan uçota aiddir. Düzəlişlər göstərir ki, illik hesabat dövrü ərzində plana düzəlişin edilməsi, sekvestr və ya hesablaşma baş verdikdə, müəssisədən aşağıdakılar tələb olunur:

- Planın və bu hadisədən sonra plan aktivlərinin təklif etdiyi faydaları əks etdirən müəyyən edilmiş ödənişlər üzrə xalis öhdəliyin (aktivin) yenidən qiymətləndirilməsi üçün istifadə edilən aktuar fərziyyələrdən istifadə edərək plana düzəlişin edilməsi, sekvestr və ya hesablaşmadan sonrakı qalıq dövr üçün cari xidmət dəyərini müəyyən etmək;
- Planın və bu hadisədən sonra plan aktivlərinin təklif etdiyi faydaları əks etdirən plana düzəlişin edilməsi, sekvestr və ya hesablaşmadan sonrakı qalıq dövr üçün xalis faizi və müəyyən edilmiş ödənişlər üzrə xalis öhdəliyin (aktivin) yenidən qiymətləndirilməsi üçün istifadə edilən diskont dərəcəsini müəyyən etmək.

Düzəlişlər həmçinin izah edir ki, müəssisə ilk öncə aktivin yuxarı həddinin təsirini nəzərə almadan hesablaşma üzrə hər hansı keçmiş xidmətin dəyərini və ya qazanc və ya itkini müəyyən edir. Məbləğ mənfəət və ya zərərdə tanınır. Daha sonra, müəssisə plana düzəlişin edilməsi, sekvestr və ya hesablaşmadan sonra aktivin yuxarı həddinin təsirini müəyyən edir. Xalis faizə daxil məbləğlər istisna olmaqla bu təsirdə hər hansı dəyişiklik digər ümumi gəlirdə tanınır.

Düzəlişlər 1 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlayan ilk illik hesabat dövrünün başlaması zamanı və ya ondan sonra edilən plana düzəlişə, sekvestr və ya hesablaşmaya tətbiq edilir. Erkən tətbiqə icazə verilir. Bu düzəlişlər yalnız Birgə müəssisənin gələcək plana düzəlişinə, sekvestr və ya hesablaşmaya tətbiq ediləcək.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

2. Mühasibat uçotu prinsiplərində dəyişikliklər (davamı)

2.2 Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni standartlar və düzəlişlər (davamı)

28 saylı MUBS-a düzəlişlər "Asılı və birgə müəssisələrdə uzunmüddətli paylar"

Düzəlişlər izah edir ki, müəssisə 9 saylı MHBS-ni iştirak payı metodu tətbiq olunmayan, lakin mahiyyətinə görə asılı və ya birgə müəssisədə xalis investisiyanın hissəsini (uzunmüddətli pay) təşkil edən asılı və ya birgə müəssisədə uzunmüddətli paylara tətbiq edir. Bu izah 9 saylı MHBS-də gözlənilən kredit zərəri modelinin bu cür uzunmüddətli paylara tətbiq olunmasını nəzərdə tutduğu üçün uyğun hesab edilir.

Düzəlişlər həmçinin izah etmişdir ki, 9 saylı MHBS-ni tətbiq etdikdə müəssisə asılı və ya birgə müəssisənin heç bir zərərini və ya 28 saylı *"Asılı və birgə müəssisələrə investisiyalar"* adlı MUBS-un tətbiqindən irəli gələn asılı və ya birgə müəssisədə xalis investisiyaya düzəlişlər kimi tanınmış xalis investisiya üzrə dəyərsizləşmə zərərini uçota almır.

Bu düzəlişlər retrospektiv şəkildə tətbiq edilməlidir və 1 yanvar 2019-cu il tarixindən qüvvəyə minir. Erkən tətbiqə icazə verilir. Birgə müəssisənin hər hansı asılı müəssisədə və ya birgə müəssisədə bu cür uzunmüddətli payları yoxdur, bu səbəbdən düzəlişlər maliyyə hesabatlarına təsir göstərməyəcək.

2015-2017-ci illərdə illik təkmilləşdirmələr (2017-ci ilin dekabr ayında buraxılmışdır)

Təkmilləşdirmələrə aşağıdakılar daxildir:

3 saylı MHBS Müəssisələrin birləşməsi

Düzəlişlər izah edir ki, bir müəssisə birgə əməliyyat olan digər müəssisə üzərində nəzarət əldə etdikdə, birgə əməliyyatın aktiv və öhdəliklərində əvvəl saxladığı payların ədalətli dəyərlə yenidən qiymətləndirilməsi də daxil olmaqla, mərhələlərlə əldə edilmiş birləşməyə aid olan tələblər tətbiq edilməlidir. Bunu etməklə, alıcı birgə əməliyyatda bütün əvvəlki paylarını yenidən ölçür.

Müəssisə bu dəyişiklikləri satınalma tarixi 1 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan ilk illik hesabat dövrünün başlanğıcına və ya sonrakı tarixə təsadüf edən müəssisələrin birləşmələrinə tətbiq edir. Erkən tətbiqə icazə verilir. Birgə müəssisə onun maliyyə hesabatlarına təsirin göstərilməsini gözləmir.

11 saylı MHBS Birgə əməliyyatlar

Birgə əməliyyatda iştirak edən, lakin üzərində nəzarəti həyata keçirməyən bir tərəf, birgə əməliyyatın fəaliyyəti 3 saylı MHBS-də müəyyən edildiyi kimi müəssisə təşkil edən birgə əməliyyatda birgə nəzarət əldə edə bilər. Düzəlişlər izah edir ki, həmin birgə əməliyyatda əvvəllər saxlanılan paylar yenidən ölçülmür.

Müəssisə həmin düzəlişləri 1 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan ilk illik hesabat dövrünün başlanğıcına və ya sonrakı tarixə təsadüf edən tarixdə birgə nəzarət əldə etdiyi əməliyyatlara tətbiq edir. Erkən tətbiqə icazə verilir. Hal-hazırda, bu düzəlişlər Birgə müəssisəyə tətbiq edilmir, lakin gələcək əməliyyatlara tətbiq edilə bilər.

12 saylı MUBS Mənfəət vergisi

Düzəlişlər izah edir ki, dividendlərin mənfəət vergisi nəticələri mülkiyyətçilərə paylamalarla deyil, paylana bilən mənfəəti yaradan keçmiş əməliyyat və ya hadisələrlə daha çox bağlıdır. Beləliklə, müəssisə dividendlərin vergi nəticələrini müəssisənin həmin keçmiş əməliyyat və ya hadisələri ilkin olaraq harada tanıdığından asılı olaraq mənfəət və ya zərərdə, digər ümumi gəlirdə və ya kapitalda tanıyır.

Müəssisə düzəlişləri 1 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün tətbiq edir. Erkən tətbiqə icazə verilir. Müəssisə bu düzəlişləri ilk dəfə tətbiq etdiyi zaman onları ən erkən müqayisə edilə bilən dövrün başlanğıcı tarixində və ya bu tarixdən sonra tanınmış dividendlərin mənfəət vergisi nəticələrinə tətbiq edir. Birgə müəssisə onun maliyyə hesabatlarına təsirin göstərilməsini gözləmir.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

2. Mühasibat uçotu prinsiplərində dəyişikliklər (davamı)

2.2 Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni standartlar və düzəlişlər (davamı)

23 saylı MUBS Borc öhdəlikləri üzrə xərclər

Düzəlişlər, aktivin nəzərdə tutulan istifadəyə və ya satışa hazırlanması üçün zəruri olan bütün tədbirlər əhəmiyyətli dərəcədə tamamlandığı halda, müvafiq aktivin hazırlanması üçün alınmış hər hansı borcların ümumi borcların bir hissəsi kimi uçota alındığını izah edir.

Müəssisə, həmin düzəlişləri müəssisənin bu düzəlişləri ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün başlanğıcında və ya sonra çəkilmiş borc öhdəlikləri üzrə xərclərə tətbiq edir. Müəssisə bu dəyişiklikləri 1 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün tətbiq edir. Erkən tətbiqə icazə verilir. Birgə müəssisə düzəlişlərin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməsini gözləmir.

3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı

3.1 Qaydalara uyğunlaşma

Maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsinin ("MUBSK") buraxdığı MHBS-yə uyğun olaraq hazırlanmışdır.

3.2 Maliyyə hesabatlarının hazırlanmasının əsası

Maliyyə hesabatları ilkin maya dəyəri prinsipi əsasında hazırlanmışdır. İlkin maya dəyəri bir qayda olaraq aktivlərin alınması üçün ödənilən vəsaitin ədalətli dəyərinə əsaslanır.

Birgə müəssisə qeydlərin aparılmasını və maliyyə hesabatlarının hazırlanmasını Azərbaycan manatı ("AZN") ilə həyata keçirir. Hazırkı maliyyə hesabatları, xüsusi göstərilmiş hallar istisna olmaqla, min AZN ilə təqdim edilir.

Hazırkı maliyyə hesabatları Birgə müəssisənin daim fəaliyyətdə olması və yaxın gələcəkdə əməliyyatlarına davam edəcəyi fərziyyəsinə əsaslanaraq hazırlanmışdır.

3.3 Maliyyə hesabatlarının hazırlanmasının əsası və mühüm mühasibat uçotu prinsiplərinin icmalı

Birgə müəssisə uçot kitablarını və qeydlərini Azərbaycanın mühasibat uçotuna dair qanunvericiliyi və təlimatlarında ("AMUQT") nəzərdə tutulan prinsip və qaydalara uyğun olaraq aparır. Həmin qaydalar əsas etibarı ilə vergi hesabatları üçün məlumatların hazırlanması məqsədini daşıyır və müvafiq olaraq, həmin qaydalarda nəzərdə tutulan vergi ilə bağlı mülahizələr Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarından ("MHBS") əhəmiyyətli şəkildə kənarlaşma ilə nəticələnir.

Təqdim edilmiş maliyyə hesabatları Birgə müəssisənin 31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə Azərbaycan standartlarına uyğun maliyyə hesabatlarını beynəlxalq standartlara uyğun şəkildə təqdim etmək üçün yenidən formalaşdırılmış və MHBS-yə uyğunlaşmaq məqsədilə düzəlişlər edilmişdir.

3.4 Mühasibat uçotu prinsiplərində dəyişikliklər

Mühasibat uçotu prinsiplərində əhəmiyyətli dəyişikliklər retrospektiv qaydada tətbiq edilmiş və əvvəlki dövrün maliyyə hesabatları yenidən hesablanmışdır. Birgə müəssisə cari dövr üçün mühasibat uçotu prinsiplərini dəyişməmişdir.

3.5 Mühasibat uçotu qiymətləndirmələrində dəyişikliklər və səhvlər

Mühasibat uçotu qiymətləndirmələrində dəyişikliklər yalnız bir dövrə aiddirsə, dəyişikliklər cari ildə tətbiq edilir, lakin qiymətləndirilmiş dəyişikliklər növbəti dövrlərə təsir göstərirsə, dəyişikliklər həm cari, həm də növbəti illərdə perspektiv qaydada tətbiq edilir. Cari ildə Birgə müəssisənin cari dövr üzrə mühasibat uçotu qiymətləndirmələrində dəyişikliklər olmamışdır.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

3.6 Gəlirlərin tanınması

Gəlirlər alınmış və ya alınacaq ödənişin ədalətli dəyəri ilə ölçülür. Gəlirlər qiymətləndirilmiş və ya realizasiya edilmiş məhsul qaytarmaları, endirimlər, komissiya güzəştləri və satışlara aid olan vergiləri nəzərə almaqla azaldılır.

Malların satışı

Malların satışından gəlirlər mallar çatdırılanda və mülkiyyət hüququ keçəndə, aşağıdakı şərtlər yerinə yetirildiyi təqdirdə, tanınır:

- Birgə müəssisə mallar üzrə mülkiyyət hüququ ilə bağlı əhəmiyyətli riskləri və faydaları alıcıya keçirmişdir;
- Birgə müəssisə idarəetmə funksiyalarını və ya satılmış mallar üzrə nəzarəti adətən mülkiyyət hüququ ilə bağlı olan dərəcədə artıq həyata keçirmir;
- Gəlirlərin məbləği etibarlı şəkildə ölçülə bilər;
- Müəssisənin əməliyyatla bağlı iqtisadi fayda əldə etməsi mümkündür; və
- Əməliyyatla bağlı çəkilmiş və ya çəkilməli olan xərclər etibarlı şəkildə ölçülə bilər.

Tikinti müqavilələrindən gəlirlər aşağıda təsvir olunan mühasibat uçotu prinsiplərinə uyğun olaraq tanınır.

3.7 Tikinti müqavilələri

Üçüncü tərəflərin tikinti fəaliyyəti üzrə idarəetmə, nəzarət və əlaqələndirilməsi öz öhdəsinə götürdüyü müqavilələr xidmət müqavilələri kimi istinad edilir və yalnız üçüncü şəxslərə təqdim edildiyi zaman gəlirlər kimi tanınır.

Müqavilə üzrə gəlirlər

Tikinti müqavilənin gəlirləri etibarlı şəkildə təxmin edilə bildiyi zaman, tikinti müqaviləsi ilə əlaqədar müqavilə gəlirləri müqavilə üzrə fəaliyyətin tamamlanma faizinə istinadən hesabat tarixində tanınır. Tamamlanma faizi ölçülmə tarixinə qədər yerinə yetirilmiş işlər üçün çəkilmiş müqavilə xərclərinin hissəsini təxmin edilmiş cəmi müqavilə xərclərinə bölməklə ölçülür. Bu hesablama tamamlama mərhələsi etibarlı şəkildə ölçülə bilmədiyi halda tətbiq edilmir. Tikinti müqaviləsinə dəyişikliklər, əlavə debitor borcları üzrə tələblər və həvəsləndirici ödənişlər sifarişçinin razılığı ilə layihə gəlirlərinə daxil edilir.

Tikinti müqaviləsinin nəticəsi etibarlı şəkildə təxmin edilə bilmədiyi halda, müqavilə gəlirləri çəkilmiş müqavilə xərclərinin mümkün qədər bərpa edilə biləcəyi dərəcədə tanınır. Müqavilə xərcləri çəkildiyi dövrdə xərc kimi tanınır.

Müqavilə üzrə xərclər

Tikinti müqavilələri üzrə xərclər bütün xammal və müqavilənin icrası ilə əlaqədar birbaşa əmək haqqı xərcləri və dolayı əmək haqqı xərcləri, avadanlıq, texniki xidmət və köhnəlmə xərclərindən ibarət birbaşa xərclərdən təşkil olunmuşdur. Satış və ümumi inzibati xərclər onların yarandığı zaman tanınır. Tamamlanmamış müqavilələrin təxmin edilmiş zərərinin dəyəri üçün ehtiyat birbaşa həmin zərərin proqnozlaşdırıldığı ildə tanınır. Biznes səmərəliliyinə, biznes şərtlərinə, müqavilə cərimələri üzrə ehtiyat və yekun müqavilə razılaşmalarına görə təxmin edilmiş mənfəətliliyə dəyişikliklər layihənin sona çatanda çəkilmiş xərclərə və əldə edilmiş gəlirlərə yenidən baxılmasına səbəb ola bilər. Bu yenidən baxılmaların təsiri belə yenidən baxılmanın aparıldığı ildə uçota alınır.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

3.7 Tikinti müqavilələri (davamı)

Müqavilə aktivləri

Əgər tanınmış gəlirlər aralıq hesab-fakturalardan artıqdırsa, Birgə müəssisə bütün gəlirlə nəticələnən müqavilələr üçün müqavilə aktivlərini qeydə alır. Müqavilə aktivi hesab-faktura kəsildiyi anda ticarət debitor borclarına yenidən təsnifləşdirilir.

Müqavilə öhdəlikləri

Əgər aralıq hesab-fakturalar tanınmış gəlirlərdən artıqdırsa, Birgə müəssisə bütün gəlirlə nəticələnən müqavilələr üçün müqavilə öhdəliklərini qeydə alır. Birgə müəssisə müqavilə əsasında hərəkət etdikdə müqavilə öhdəlikləri gəlirlər kimi tanınır.

Müqavilə xərcləri ilə bağlı aktivlər

Xərclərlə bağlı aktivlər müştəri ilə müqavilənin bağlanması ilə bağlı əlavə xərclər (bərpa oluna bilən) üçün tanınır və müqavilə ilə birbaşa bağlı olan müqavilənin yerinə yetirilməsi üçün çəkilən xərclərin bərpa oluna bilən olması və icra öhdəliklərinin yerinə yetirilməsində istifadə edilən ehtiyatları yaratması və ya artırması gözlənilir. Digər standartlara əsasən kapitalizasiya üçün yararlı xərclər müvafiq standartlara əsasən kapitalizasiya ediləcək.

Birgə müəssisənin rəhbərliyi müqavilənin əhatə dairəsindən kənara çıxan, gəlir olaraq məhkəmə araşdırmasına səbəb ola bilən kompensasiya üzrə əlavə debitor borclarını tanımır. Lakin, müştərinin iddianı qəbul edəcəyini və əlavə debitor borclarının məbləğinin etibarlı şəkildə ölçülə biləcəyini ehtimal etməyə əsas yaradan danışıqlar son mərhələyə çatdığı hallar istisna təşkil edir.

3.8 Mal-material ehtiyatları

Mal-material ehtiyatları maya dəyəri və xalis satış dəyəri arasında ən aşağı olan dəyərdə qeydə alınır. Məsrəflər, o cümlədən müəyyən və ya dəyişən əlavə xərclərin müvafiq hissəsi, mal-material ehtiyatlarına mal-material ehtiyatlarının konkret sinfinə daha uyğun olan metodla aid edilir, əksəriyyəti "ilk mədaxil – ilk məxaric" prinsipi ilə (first in, first out, FIFO) qiymətləndirilir. Mümkün xalis satış dəyəri satış aparmaq üçün lazım olan qiymətləndirilmiş xərcləri çıxmaqla, fəaliyyətin adi gedişində qiymətləndirilmiş satış qiymətidir.

Tikinti layihələrinə gəldikdə, xüsusi olaraq bu layihələr üçün istehsal edilmiş materiallar müqavilə sahələrinə çatdırılanda layihə xərclərinə daxil edilir.

3.9 Əsas vəsaitlər

Əsas vəsaitlər yığılmış köhnəlməni və hər hansı yığılmış dəyərsizləşmə zərərlərini çıxmaqla maya dəyəri ilə uçota alınır. Torpaq köhnəlmir və yığılmış dəyərsizləşməni çıxmaqla maya dəyəri ilə uçota alınır.

Köhnəlmə, aktivlərin (mülkiyyətdə olan torpaq sahəsi və tikintisi tamamlanmamış əmlak istisna olmaqla) dəyərini və ya qiymətəndirilmiş dəyərini birbaşa bölüşdürmə metodu ilə, qiymətləndirilmiş istifadə müddətləri üzrə qalıq dəyərlərini çıxmaqla, silmək üçün tanınır. Qiymətləndirilmiş istifadə müddətləri, qalıq dəyərləri və köhnəlmə metodu hər hesabat dövrünün sonunda yenidən baxılır və hər hansı dəyişikliklər olarsa, onlar perspektiv qaydada uçota alınır.

Əsas vəsaitlər maddəsi silinəndə və ya həmin aktivin gələcək istifadəsindən iqtisadi faydaların əldə edilməsi artıq gözlənilməyəndə uçotdan çıxarılır. Əsas vəsaitlər maddəsinin silinməsi və ya çıxarılmasından yaranan hər hansı mənfəət və zərər, satış gəlirləri ilə aktivin balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və ya zərərdə tanınır.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

3.10 Qeyri-maddi aktivlər

Ayrıca alınmış qeyri-maddi aktivlər

Ayrıca alınmış qeyri-maddi aktivlərin uçotu yığılmış amortizasiyanı və yığılmış dəyərsizləşmə zərərlərini çıxmaqla maya dəyəri əsasında aparılır. Amortizasiya istifadə müddəti ərzində bərabər hissələrə bölməklə tanınır. Təxmin edilən istifadə müddəti və amortizasiyanın hesablanması metoduna hər illik hesabat dövrünün sonunda baxılır və hər hansı dəyişikliklər olarsa, onlar perspektiv qaydada uçota alınır. Alınmış kompüter proqram təminatları üçün lisenziyalar xüsusi proqram təminatının alınması və istifadəyə verilməsi üçün çəkilmiş xərclərə əsasən kapitallaşdırılır. Bu xərclər təxmin edilən istifadə müddəti ərzində amortizasiya edilir.

Qeyri-maddi aktivlərin uçotdan silinməsi

Qeyri-maddi aktiv silindiyi və ya istifadə edildiyi və ya silinməsindən heç bir gələcək iqtisadi faydanın gözlənilmədiyi zamanı uçotdan silinir. Qeyri-maddi aktivin uçotdan silinməsindən əldə edilmiş və silinmədən xalis daxilolmalarla aktivin balans dəyəri arasında fərq kimi ölçülmüş gəlir və ya zərərlər aktivin uçotdan silinməsi zamanı mənfəət və ya zərərdə tanınır.

3.11 Maddi və qeyri-maddi aktivlərin dəyərsizləşməsi

Hər bir hesabat dövrünün sonunda Birgə müəssisə maddi və qeyri-maddi aktivlərinin balans dəyərlərində dəyərsizləşmə əlamətlərinin olub-olmadığını təhlil edir. Əgər bu cür əlamətlər mövcud olarsa, dəyərsizləşmə zərərinin (əgər mövcuddursa) dərəcəsini qiymətləndirmək məqsədilə aktivin bərpa dəyəri təxmin edilir. Müəyyən aktivin bərpa dəyərini qiymətləndirmək mümkün olmasa, Birgə müəssisə aktivin məxsus olduğu pul vəsaitlərini yaradan vahidin bərpa dəyərini qiymətləndirir. Ayrılma üçün məqsədəuyğun və ardıcıl əsas müəyyən edilərsə, korporativ aktivlər də həmçinin, fərdi pul vəsaitlərini yaradan vahidlərə və ya əks halda, məqsədəuyğun və ardıcıl əsas müəyyən edilmiş pul vəsaitlərini yaradan vahidlərin ən kiçik qrupuna ayrılır.

Qeyri-müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlər və istifadə üçün hazır olmayan qeyri-maddi aktivlər ən azı ildə bir dəfə və həmin aktivin dəyərsizləşməsinə dair bir əlamətin olduğu zaman dəyərsizləşmə yoxlamasından keçir. Bərpa dəyəri satış xərcləri çıxılmaqla ədalətli dəyərdən və istifadə dəyərindən artıq olan məbləğdir. İstifadə dəyərin qiymətləndirərkən təxmin edilən gələcək pul vəsaitlərinin hərəkəti pulun vaxt dəyəri üzrə cari qiymətləndirmə bazarlarını və təxmin edilmiş gələcək pul vəsaitlərinin hərəkətlərinə düzəliş edilməmiş aktivə xas riskləri əks etdirən vergidən əvvəlki diskont dərəcəsindən istifadə olunmaqla onların cari dəyərinə diskont edilir.

Əgər qiymətləndirmələrə görə aktivin (və ya pul vəsaitlərini yaradan vahidin) bərpa dəyəri balans dəyərindən azdırsa, aktivin (və ya pul vəsaitlərini yaradan vahidin) balans dəyəri bərpa dəyərinədək azaldılır. Əgər müvafiq aktiv yenidən qiymətləndirilmiş məbləğlə uçota alınarsa, dəyərsizləşmə zərəri yenidən qiymətləndirmə üzrə artım kimi uçota alınacaq, əks halda, dəyərsizləşmə zərəri dərhal mənfəət və ya zərərdə tanınır.

Dəyərsizləşmə zərəri sonradan aradan götürülürsə, aktivin (və ya pul vəsaitlərini yaradan vahidin) balans dəyəri bərpa dəyərinin yenidən qiymətləndirilmiş məbləğinədək artırılmalı, lakin aktiv və ya pul vəsaitlərini yaradan vahid üçün heç bir dəyərsizləşmə zərərinin tanınmamış olduğu halda müəyyən ediləcək balans dəyərindən artıq olmamalıdır, əks halda, müvafiq aktiv yenidən qiymətləndirilmiş məbləğdə tanınır, bu halda isə, dəyərsizləşmə zərərinin aradan qaldırılması yenidən dəyərləndirmə üzrə artım kimi uçota alınır.

3.12 Borc öhdəlikləri üzrə xərclər

Nəzərdə tutulan istifadəyə və satışa hazır olması üçün əhəmiyyətli vaxtın sərf olunmasını tələb edən kvalifikasiya edilmiş aktivin satın alınması, tikintisi və ya istehsalına birbaşa aid edilə bilən borc öhdəlikləri üzrə xərclər, aktivlərin nəzərdə tutulmuş istifadə və ya satışı üçün əsaslı olaraq hazır olan vaxta qədər həmin sahələrin dəyərinə əlavə edilir.

Bütün digər borc öhdəlikləri üzrə xərclər yarandığı dövrdə mənfəət/(zərər) haqqında hesabatda uçota alınır.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

3.13 Maliyyə aktivləri

İlkin tanınma və ölçmə

İlkin tanınma zamanı maliyyə aktivləri sonradan amortizasiya olunmuş dəyər, digər ümumi gəlir (DÜG) vasitəsilə ədalətli dəyər və mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülmüş kimi təsnifləşdirilir.

Əhəmiyyətli maliyyə komponenti olmayan və praktiki vasitə tətbiq edilən ticarət debitor borcları istisna olmaqla, Şirkət maliyyə aktivini ilkin olaraq ədalətli dəyərlə (maliyyə aktivi mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülmədikdə əməliyyat xərcləri əlavə olunmaqla) ölçür. Əhəmiyyətli maliyyə komponenti olmayan və praktiki vasitə tətbiq edilən ticarət debitor borcları 15 saylı MHBS-yə əsasən müəyyən olunmuş əməliyyat qiyməti ilə ölçülür.

Maliyyə aktivlərinin ilkin tanınma zamanı təsnifləşdirilməsi maliyyə aktivinin müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin xüsusiyyətləri və Birgə müəssisənin onları idarə etmək üçün istifadə etdiyi biznes modeldən asılıdır.

Maliyyə aktivinin amortizasiya olunmuş dəyər və ya DÜG vasitəsilə ədalətli dəyərlə təsnifləşdirilməsi və ölçülməsi üçün, o əsas qalıq məbləğ üzrə "yalnız əsas məbləğ və faiz ödənişləri (YƏMFÖ)" meyarına uyğun olan pul vəsaitlərinin hərəkətini yaratmalıdır. Bu qiymətləndirmə YƏMFÖ testi kimi müəyyən edilir və alət səviyyəsində aparılır.

Maliyyə aktivlərini idarə etmək üçün Birgə müəssisənin biznes modeli onun pul vəsaitlərinin hərəkətini yaratmaq məqsədilə öz maliyyə aktivlərini necə idarə etdiyi ilə bağlıdır. Biznes model pul vəsaitlərinin hərəkətinin müqavilə üzrə pul vəsaitlərinin toplanılmasından, maliyyə aktivlərinin satışından və ya onların hər ikisi nəticəsində yaranıb yaranmayacağını müəyyən edir.

Ümumiyyətlə, Birgə müəssisə heç bir maliyyə aktivini ilkin tanınma zamanı digər ümumi gəlir (DÜG) vasitəsilə ədalətli dəyər və mənfəət və ya zərər vasitəsi ilə ədalətli dəyərlə təsnif etməmişdir.

Sonrakı qiymətləndirmə

Hər iki şərtin yerinə yetirilməsi səbəbindən, Birgə müəssisə maliyyə aktivlərini amortizasiya olunmuş dəyərlə ölçmüşdür:

- Maliyyə aktivi müqavilədən yaranan pul vəsaitlərinin hərəkətini toplamaq üçün maliyyə aktivlərini saxlamaq məqsədini daşıyan biznes model çərçivəsində saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə qalan əsas məbləğ üzrə yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət pul vəsaitlərinin hərəkətinin yaranmasına səbəb olur.

Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri daha sonra effektiv faiz dərəcəsi metodundan istifadə etməklə hesablanır və dəyərsizləşməyə məruz qalır. Aktivin tanınması dayandırıldıqda, o dəyişdirildikdə və ya dəyərdən düşdükdə gəlir və zərərlər mənfəət və ya zərərdə tanınır.

Tanınmanın dayandırılması

Maliyyə aktivi (və ya müvafiq hallarda maliyyə aktivinin bir hissəsi və ya analoji maliyyə aktivləri qrupunun bir hissəsi) aşağıdakı hallarda uçotdan çıxarılır:

- Aktivdən pul vəsaitlərini əldə etmək hüquqlarının müddəti başa çatmışdır;
- Birgə müəssisə özünün aktivdən pul vəsaitlərini almaq hüquqlarını üçüncü tərəfə köçürmüş və ya üzərinə aktivdən pul vəsaitlərini "tranzit" razılaşması əsasında tam məbləğdə və çox yubanmadan ödəmək öhdəliyini götürmüşdür və (a) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş və ya (b) aktiv üzrə risk və səmərələrin böyük hissəsini nə köçürmüş, nə də özündə saxlamış, lakin aktiv üzrə nəzarət hüququnu köçürmüşdür.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

3.13 Maliyyə aktivləri (davamı)

Birgə müəssisə aktivdən pul vəsaitlərini almaq hüququnu köçürdükdə və ya "tranzit" razılaşmasına qoşulduqda, mülkiyyət hüququ ilə bağlı risk və faydaları saxlayıb-saxlamadığını və nə dərəcədə saxladığını qiymətləndirir. Birgə müəssisə nə aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş, nə özündə saxlamış, nə də aktiv üzrə nəzarət hüququnu köçürmüşdürsə, aktiv Birgə müəssisənin həmin aktivdə davam edən iştirakı həddində əks etdirilir. Bu halda Birgə müəssisə əlaqəli öhdəliyi də tanıyır.

Maliyyə aktivlərinin dəyərsizləşməsi

9 saylı MHBS-nin tələblərinə uyğun olaraq, Birgə müəssisə dəyərsizləşmə və maliyyə alətlərinin dəyərsizləşməsi üçün ehtiyatın hesablanması üçün qaydaları təsvir edən metodologiya işləyib hazırlamışdır.

9 saylı MHBS-nin tələblərinə uyğun olaraq, Birgə müəssisə maliyyə alətləri üçün ehtiyatın yaradılması məqsədi ilə gözlənilən kredit zərərləri modelini tətbiq edir. Bu modelin əsas prinsipi cari və proqnoz edilən məlumatları nəzərə alaraq maliyyə alətlərinin kredit keyfiyyətinin pisləşməsi və ya yaxşılaşmasının vaxtı-vaxtında əks etdirilməsidir. Dəyərsizləşmə üçün ehtiyat kimi tanınan gözlənilən kredit zərərlərinin məbləği ilkin tanınma tarixindən maliyyə alətinin kredit keyfiyyətində dəyişikliyin səviyyəsindən asılıdır.

Maliyyə alətləri üçün gözlənilən kredit zərərləri aşağıdakı yanaşmaların birindən istifadə etməklə ehtimal edilir:

- Sadələşdirilmiş yanaşma aşağıdakılara tətbiq edilir:
  - Hökumətin debitor borcları;
  - Korporativ biznesin debitor borcları (ümumi balans dəyəri 2,000,000 AZN-dən az və ya ona bərabər olan və xarici reytinqi olmayan);
- Ümumi yanaşma – 9 saylı MHBS-yə uyğun olaraq ehtiyatın yaradılmasına məruz qalan və kredit üzrə düzəliş edilmiş yanaşma və sadələşdirilmiş yanaşma tətbiq edilməyən bütün maliyyə alətlərinə tətbiq edilir;
- Kredit üzrə düzəliş edilmiş yanaşma – ilkin tanınma zamanı kredit üzrə dəyərsizləşmiş maliyyə alətlərinə tətbiq edilir.

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi üçün ümumi yanaşma

Ümumi yanaşmaya uyğun olaraq, tanınma tarixində bütün maliyyə alətləri Mərhələ 1 kimi uçota alınır, daha sonra ilkin tanınma tarixindən başlayaraq kredit riskində artımın səviyyəsindən asılı olaraq sonrakı hesabat tarixləri üçün Birgə müəssisə maliyyə alətlərini aşağıdakı mərhələlərdən birinə aid edir.

- Mərhələ 1 – Kredit riski əhəmiyyətli dərəcədə artmamış, dəyərsizləşmə əlamətləri olmayan maliyyə aktivləri. Gözlənilən kredit zərərləri 1 il ərzində hesablanır.
- Mərhələ 2 –Kredit riski əhəmiyyətli dərəcədə artmış, dəyərsizləşmə əlamətləri olmayan maliyyə aktivləri. Gözlənilən kredit zərərləri maliyyə alətinin bütöv dövrü ərzində hesablanır (dəyərsizləşmə əlaməti – 30 gündən çox gecikmə).
- Mərhələ 3 – Dəyərsizləşmə əlamətləri olan maliyyə aktivləri. Gözlənilən kredit zərərləri maliyyə alətinin bütöv dövrü ərzində hesablanır (dəyərsizləşmə əlaməti – 90 gündən çox gecikmə və ya daxili və xarici məlumatın Birgə müəssisənin kredit öhdəliklərinin nəzərə alınmasından əvvəl Birgə müəssisənin qalıq müqavilə məbləğlərinin tam olaraq alınmasının həqiqətə uyğun olmamasını göstərməsi).

Sadələşdirilmiş yanaşma

Bu yanaşma əsasında Birgə müəssisə, kredit riskindəki dəyişiklikləri izləmir, lakin bunun əvəzinə hər bir hesabat dövründə bütöv müddət üçün GKZ-yə əsaslanan zərər üzrə ehtiyatı tanıyır.

Hər bir hesabat tarixində, Birgə müəssisə həddindən artıq məsrəf və ya qüvvə sərf edilmədən mövcud olan əsaslandırılmış və sübuta yetirilmiş məlumatlardan istifadə edərək kredit riskində dəyişikliyin olub-olmamasını qiymətləndirir. Qiymətləndirməni apararkən, Birgə müəssisə alətin daxili kredit reytinqini yenidən qiymətləndirir.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

3.13 Maliyyə aktivləri (davamı)

Aktivin balans dəyəri ehtiyat hesabının istifadə edilməsi ilə azalır və zərərin məbləği mənfəət və ya zərərdə əks etdirilir. Faiz gəlirləri azaldılmış balans dəyəri üzrə hesablanmağa davam edir və dəyərsizləşmə zərərini qiymətləndirmək məqsədilə gələcək pul vəsaitləri hərəkətlərinin diskont edilməsi üçün istifadə edilən dərəcə ilə hesablanır. Faiz gəliri maliyyə nəticələri haqqında hesabatda maliyyə gəlirləri kimi tanınır. Kreditlər və onlar üçün yaradılmış müvafiq ehtiyat kreditin qaytarılmasının realistik perspektivləri olmayanda və bütün girov və yaxud təminat reallaşdırıldıqda və ya Birgə müəssisənin mülkiyyətinə keçdikdə silinir. Əgər növbəti ildə qiymətləndirilmiş dəyərsizləşmə zərərinin məbləği dəyərsizləşmə tanındıqdan sonra baş vermiş hadisə nəticəsində artır və ya azalırsa, əvvəl tanınmış dəyərsizləşmə zərəri ehtiyat hesabında düzəliş aparmaqla əks etdirilir. Gələcək silinmə sonradan bərpa edilirsə, bərpa məbləği maliyyə nəticələri haqqında hesabatda öz əksini tapır.

3.14 Maliyyə öhdəlilikləri

Maliyyə öhdəlikləri ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri və ya digər maliyyə öhdəlikləri kimi təsnif edilir.

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri

Maliyyə öhdəlikləri alınıb-satılmaq üçün saxlanıldığı və ya ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan kimi müəyyən edildiyi halda ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan kimi təsnif edilir.

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri ədalətli dəyərdə əks olunur, yenidən qiymətləndirmə üzrə yaranan hər hansı gəlir və ya zərər isə mənfəət və ya zərərdə tanınır. Mənfəət və ya zərərdə tanınan xalis gəlir və ya zərərə maliyyə öhdəlikləri üzrə ödənilmiş faiz əlavə edilir və "digər gəlir və zərərlər" maddəsinə daxil edilir. Ədalətli dəyər 22-ci Qeyddə göstərilmiş qaydada müəyyən edilir.

Digər maliyyə öhdəlikləri

Borc öhdəlikləri və kreditor borcları və digər kreditor borcları daxil olmaqla, digər maliyyə öhdəlikləri ilkin olaraq əməliyyat xərcləri çıxılmaqla ədalətli dəyərdə qiymətləndirilir.

Digər maliyyə öhdəlikləri ilkin qiymətləndirmədən sonra effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya hesablanmış dəyərlə qiymətləndirilir, faiz xərci isə faktiki gəlir əsasında tanınır.

Effektiv faiz dərəcəsi metodu maliyyə öhdəliyinin amortizasiya hesablanan dəyərinin hesablanması və faiz gəlirinin müvafiq dövr üzrə bölüşdürülməsi metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir.

Maliyyə öhdəliklərinin uçotdan silinməsi

Birgə müəssisə maliyyə öhdəliklərini o halda uçotdan silir ki, onun öhdəlikləri ya dayandırılmış, ya ləğv olunmuş olsun, ya da müddəti bitmiş olsun. Uçotdan silinmiş maliyyə öhdəliklərinin balans dəyəri və ödənilmiş və ya ödənilməli ödəmələr arasındakı fərq mənfəət və ya zərərdə tanınır.

3.15 Maliyyə alətlərinin qarşılıqlı əvəzləşdirilməsi

Maliyyə aktivləri və maliyyə öhdəlikləri tanınmış məbləğləri qarşılıqlı əvəz etmək üçün hal-hazırda qanuni hüquq olanda və müəssisənin ya hesablaşmanı netto əsasında həyata keçirmək, ya da eyni vaxtda aktivi reallaşdırmaq və öhdəliyi yerinə yetirmək niyyəti vardırsa, qarşılıqlı əvəz olunur və maliyyə vəziyyəti haqqında hesabatda xalis məbləğ təqdim olunur.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

3.16 Xarici valyuta ilə əməliyyatlar

Birgə müəssisənin funksional valyutası və maliyyə hesabatlarının təqdimat valyutası AZN-dir.

Maliyyə hesabatlarının hazırlanması zamanı Birgə müəssisənin AZN olmayan valyuta (xarici valyuta) ilə aparılmış əməliyyatları, həmin əməliyyatların tarixində qüvvədə olan valyuta məzənnələrindən istifadə etməklə uçota alınır. Hər bir balans hesabatı tarixində xarici valyutada əks olunmuş monetar alətlər balans hesabatının tarixində qüvvədə olan dərəcələrlə yenidən hesablanır. Xarici valyutada ifadə edilən ədalətli dəyərdə əks olunan qeyri-monetar maddələr ədalətli dəyərin təyin olunduğu tarixdə qüvvədə olan dərəcələrlə yenidən təqdim edilir. Xarici valyutada ilkin dəyərlə ölçülən qeyri-monetar maddələr yenidən çevrilmir.

Aşağıdakılar istisna olmaqla, məzənnə fərqləri mənfəət və ya zərərdə əmələ gəldiyi dövrdə tanınır:

- Gələcək məhsuldar istifadə üçün tikintisi tamamlanmamış aktivlərlə əlaqədar xarici valyuta ilə borc öhdəlikləri üzrə həmin aktivlərin maya dəyərinə daxil edilmiş məzənnə fərqləri – həmin xarici valyuta ilə borc öhdəlikləri üzrə faiz xərclərinə düzəliş hesab olunur.
- Ödənilməsi planlaşdırılmayan və ya ehtimal edilməyən, xarici əməliyyata xalis investisiyanın bir hissəsini təşkil edən və xarici valyuta ilə əməliyyatda tanınan və xalis investisiya xaric edilərkə mənfəət və ya zərərdə tanınan xarici əməliyyat üzrə alınacaq və ya ödəniləcək monetar maddələr üzrə məzənnə fərqləri.

Xarici valyuta, xüsusilə ABŞ dolları ("ABŞ dolları") Azərbaycanda bir çox işgüzar əməliyyatların əsasını təşkil edən iqtisadi şəraitlərdə əhəmiyyətli rol oynayır. Aşağıdakı cədvəldə Azərbaycanın yerli valyutası olan AZN-in 31 dekabr 2018-ci və 2017-ci il tarixlərinə ABŞ dollarına qarşı məzənnəsi icmal edilir.

1 ABŞ dolları bərabərdir:

31 dekabr tarixinə	AZN
2018	1.7000
2017	1.7001

3.17 Hesabat tarixindən sonra baş vermiş hadisələr

Hesabat tarixi ilə maliyyə hesabatlarının dərc edildiyi tarix arasında baş vermiş və Birgə müəssisəyə müsbət və ya mənfi təsir göstərmiş bütün hadisələrin izahı (balans hesabatı tarixindən əvvəl baş vermiş hadisənin sübutu əldə edilərsə və ya yeni hadisələr baş verərsə) müvafiq qeyddə təqdim olunur.

3.18 Ehtiyatlar

Birgə müəssisə keçmiş hadisələr nəticəsində cari öhdəliyə malik olduqda və Birgə müəssisədən bu öhdəliyin yerinə yetirilməsinin tələb edilməsi ehtimal edildikdə və öhdəliyin məbləği etibarlı qiymətləndirilə bildikdə ehtiyatlar uçota alınır.

Ehtiyat kimi tanınmış məbləğ balans hesabatı tarixində öhdəliklə bağlı risk və qeyri-müəyyənlikləri nəzərə almaqla cari öhdəliyi ödəmək üçün tələb olunan vəsaitin ən yaxşı qiymətləndirməsidir. Ehtiyat cari öhdəliyi ödəmək üçün qiymətləndirilmiş pul vəsaitlərinin hərəkətini istifadə etməklə ölçülürsə, balans dəyəri həmin pul vəsaitlərinin cari dəyərinə bərabərdir.

Ehtiyatı ödəmək üçün tələb olunan bəzi və ya bütün iqtisadi faydaların əvəzinin üçüncü tərəflə ödənilməsi gözlənilərsə, debitor borcu bu halda aktiv kimi tanınır ki, onun əvəzinin ödənilməsi yəqin olsun və debitor borcunun məbləği etibarlı ölçülə bilsin.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

3.19 Vergilər və təxirə salınmış mənfəət vergisi

Mənfəət vergisi xərci cari mənfəət vergisi və təxirə salınmış mənfəət vergisinin cəmini əks etdirir.

Cari mənfəət vergisi

Cari və əvvəlki dövrlər üzrə cari mənfəət vergisi aktivləri və öhdəlikləri vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləğdə ölçülür. Məbləği hesablamaq üçün maliyyə vəziyyəti haqqında hesabatın tarixinə qüvvədə olan və ya faktiki olaraq qüvvədə olan vergi dərəcələri və vergi qanunları istifadə edilir.

Birbaşa kapitalda tanınmış maddələrlə bağlı cari mənfəət vergisi mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda deyil, kapitalda tanınır.

Təxirə salınmış vergi

Təxirə salınmış vergi, balans hesabatı metodundan istifadə etməklə, hesabat tarixində aktivlərin və öhdəliklərin vergi bazası və onların maliyyə hesabatları məqsədləri üçün göstərilmiş qalıq dəyərləri arasında müvafiq maliyyə vəziyyəti haqqında hesabatın tarixinə mövcud olan bütün müvəqqəti fərqlər üzrə müəyyən edilir.

Təxirə salınmış vergi öhdəlikləri aşağıdakılar istisna olmaqla vergiyə cəlb olunan bütün müvəqqəti fərqlər üçün tanınır:

- Təxirə salınmış vergi öhdəliyi şirkətlərin birləşməsi olmayan əməliyyat zamanı qudvil və ya aktiv və ya öhdəliyin ilkin tanınmasından irəli gəldiyi, eləcə də əməliyyat zamanı uçot mənfəətinə və ya vergiyə cəlb olunan mənfəət və ya zərərə təsir göstərmədiyi hallar;
- Müvəqqəti fərqlərin qaytarılması vaxtının nəzarət altında saxlanıla bilən və müvəqqəti fərqin yaxın gələcəkdə qaytarılması ehtimalı olmayan hallar istisna olmaqla, törəmə müəssisələrə, əlaqəli şirkətlərə investisiyalarla və birgə müəssisələrdə iştirak payları ilə əlaqədar vergiyə cəlb olunan müvəqqəti fərqlər.

Təxirə salınmış vergi aktivləri aşağıdakılar istisna olmaqla bütün çıxılmalı müvəqqəti fərqlərin, sonrakı dövrə keçirilmiş istifadə edilməmiş vergi aktivləri və istifadə edilməmiş vergi öhdəliklərinin istifadəsi ilə əlaqədar vergi tutulmalı mənfəətin mövcudluğunun mümkünlüyü baxımından, çıxılmalı müvəqqəti fərqlər, sonrakı dövrə keçirilmiş istifadə edilməmiş vergi kreditləri və istifadə edilməmiş vergi öhdəlikləri üçün tanınır:

- Çıxılan müvəqqəti fərqə aid olan təxirə salınmış vergi aktivi şirkətlərin birləşməsi olmayan əməliyyat zamanı aktiv və ya öhdəliyin ilkin tanınmasından irəli gəldiyi, eləcə də əməliyyat zamanı uçot mənfəətinə və ya vergiyə cəlb olunan mənfəət və ya zərərə təsir göstərmədiyi hallar; və
- Törəmə müəssisələrə, əlaqəli şirkətlərə investisiyalarla və birgə müəssisələrdə iştirak payları ilə bağlı vergiyə cəlb olunan müvəqqəti fərqlərlə əlaqədar, təxirə salınmış vergi aktivi yaxın gələcəkdə müvəqqəti fərqlərin qaytarılması və müvəqqəti fərqləri qarşılaya biləcək vergiyə cəlb olunan mənfəətin mövcudluğunun mümkünlüyü həddində tanınır.

Təxirə salınmış vergi aktivlərinin dəyəri hər maliyyə vəziyyəti haqqında hesabat tarixində nəzərdən keçirilir və təxirə salınmış vergi aktivlərinin hamısının və ya bir hissəsini qarşılamaq üçün kifayət qədər vergiyə cəlb olunan mənfəətin mövcudluğu ehtimalı olmadığı halda azaldılır. Tanınmamış təxirə salınmış vergi aktivləri hər hesabat tarixində yenidən qiymətləndirilir və gələcək vergiyə cəlb olunacaq gəlirlər təxirə salınmış vergi aktivinin bərpa olunmasına imkan verdiyi dərəcədə tanınır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri, hər maliyyə vəziyyəti haqqında hesabat tarixinə qüvvədə olan və ya faktiki olaraq qüvvədə olan vergi dərəcələri (və vergi qanunları) əsasında aktivlərin satıldığı və ya öhdəliklərin yerinə yetirildiyi müddətdə tətbiq edilən vergi dərəcələri ilə ölçülür. Azərbaycan Respublikasının Vergi Məcəlləsi vergi zərərlərinin 5 illik dövrə gələcəyə keçirilməsini yola verir.

Mənfəət və ya zərərdən kənar tanınmış maddələrə aid olan təxirə salınmış vergi mənfəət və ya zərərdən kənar tanınır. Təxirə salınmış vergi maddələri müvafiq əməliyyatla əlaqədar ümumi gəlirdə və ya birbaşa kapitalda tanınır.

Təxirə salınmış vergi aktivləri və təxirə salınmış vergi öhdəlikləri, cari vergi aktivlərini cari vergi öhdəlikləri ilə əvəzləşdirmək üçün qanuni hüquq mövcud olanda və təxirə salınmış vergilər eyni vergiyə cəlb olunan müəssisəyə aid olanda əvəzləşdirilir.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

3. Mühüm mühasibat uçotu prinsiplərinin icmalı (davamı)

3.20 Əlaqəli tərəflərlə əməliyyatlar

Hazırkı maliyyə hesabatlarının məqsədləri üçün tərəflər o halda əlaqəli hesab edilir ki, bir tərəf digər tərəfə nəzarət etmək və ya maliyyə və ya əməliyyat qərarlarının qəbul edilməsində mühüm təsir göstərmək iqtidarında olsun. Hər bir potensial əlaqəli tərəf münasibətlərini nəzərdən keçirdikdə, diqqət bu münasibətlərin yalnız hüquqi formasına deyil, mahiyyətinə də yönəldilir.

Əlaqəli tərəflər əlaqəli olmayan tərəflərin həyata keçirə bilmədiyi əməliyyatlarda iştirak edə bilər. Əlaqəli tərəflər arasında əməliyyatlar əlaqəli olmayan tərəflər arasındakı əməliyyatlarla eyni şərt, müddət və məbləğ əsasında aparılmaya bilər. Əlaqəli tərəflərlə əməliyyatlar öz xüsusiyyətinə görə kommersiya əsası ilə aparılan əməliyyatlar hesab edilə bilməz.

4. Mühüm mühasibat uçotu mühakimələri və qiymətləndirmə qeyri-müəyyənliyinin əsas mənbələri

Müqaviləyə dəyişikliklər

Müqaviləyə dəyişikliklər etibarlı şəkildə qiymətləndirilə bilən gəlirlərə gətirib çıxara biləcək dərəcədə gəlirlər kimi tanınır. Bu, rəhbərlik tərəfindən müqavilənin şərtləri və müqavilə mülkiyyətçiləri ilə əlaqələrlə bağlı əvvəlki təcrübəsinə əsaslanaraq mühakimələrin işlədilməsini tələb etmişdir.

Tamamlama faizi

Birgə müəssisə tikinti müqavilələrini uçota almaq üçün tamamlama faizi metodundan istifadə edir. Tamamlama faizi metodunun işlədilməsi Birgə müəssisədən hazırkı tarixədək yerinə yetirilmiş işləri yerinə yetiriləcək cəmi işlərə nisbətini qiymətləndirməyi tələb edir. Tamamlama faizinin ölçülməsi üçün ən münasib metod – hazırkı tarixədək çəkilmiş xərclərin cəmi təxmin edilmiş xərclərə nisbətini hesablamaqdır.

Tikinti işlərinin qiymətləndirmələri

Birgə müəssisə "tikinti layihələrini tamamlamaq üçün qalan xərclər"i müəssisə daxilində tərtib edilmiş proqnozlara uyğun olaraq hesablayır. Materialların qiymətlərinin, əmək xərclərinin və digər xərclərin artması kimi amillər proqnozlara balans hesabatı tarixlərinə mövcud olan ən yaxşı qiymətləndirmələrə əsaslanaraq daxil edilir. Sonrakı dövrlərdə gözlənilməyən artımlar qalan xərclərin yenidən qiymətləndirilməsini tələb edəcək.

Təxirə salınmış vergilər

Cari və təxirə salınmış vergilərin hesablanması üçün rəhbərliyin mühakiməsi tələb olunur. Təxirə salınmış vergi aktivləri, onların istifadəsi mümkün olduğu dərəcədə tanınır. Təxirə salınmış vergi aktivlərinin istifadə edilməsi müvafiq verginin növündən və hüquqi səlahiyyət dairəsində kifayət qədər vergiyə cəlb olunan mənfəət yaratmaq imkanından asılı olacaqdır. Təxirə salınmış vergi aktivlərinin gələcəkdə istifadə edilə bilməsini qiymətləndirmək məqsədilə keçmiş əməliyyatların nəticələri, əməliyyat planı, gələcək dövrlərə keçirilən vergi zərərlərinin müddətinin başa çatması və verginin planlaşdırılması strategiyaları da daxil olmaqla müxtəlif amillərdən istifadə edilir.

Gələcəkdə vergiyə cəlb ediləcək gəlirin qiymətləndirilməsi əməliyyatlardan əldə edilməsi ehtimal edilən pul vəsaitlərinin hərəkətinə və qüvvədə olan vergi qanunlarının hər bir hüquq səlahiyyəti dairəsində tətbiqinə əsaslanır. Faktiki nəticələr bu ehtimallardan fərqlənirsə və ya gələcək dövrlərdə bu ehtimallara düzəlişlər edilməlidirsə, maliyyə vəziyyəti, əməliyyatların nəticələri və pul vəsaitlərinin hərəkəti mənfi təsirə məruz qala bilər. Təxirə salınmış vergi aktivlərinin gələcəkdə istifadəsinin qiymətləndirilməsi azaldılmalıdırsa, belə azaldılma mənfəət və ya zərərdə əks etdirilir.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

4. Mühüm mühasibat uçotu mühakimələri və qiymətləndirmə qeyri-müəyyənliyinin əsas mənbələri (davamı)

Cari vergilər

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlər və tez-tez edilən dəyişikliklərlə səciyyələnir. Bundan əlavə, Birgə müəssisənin əməliyyatları və fəaliyyətinə tətbiq edilən vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərhi rəhbərliyin şərhi ilə üst-üstə düşməyə bilər. Nəticədə, vergi orqanları əməliyyatlara qarşı iddialar irəli sürə və Birgə müəssisənin müəssisələrinə əlavə əhəmiyyətli ola biləcək vergi, cərimə və faiz hesablana bilər. Vergi və gömrük orqanları yoxlama ilindən əvvəlki üç təqvim ili üzrə vergi öhdəlikləri ilə bağlı yoxlama apara bilərlər. Müəyyən hallarda yoxlamalar daha uzun müddəti əhatə edə bilər.

31 dekabr 2018-ci il tarixində rəhbərlik hesab edir ki, Birgə müəssisənin müvafiq qanunvericiliyi düzgün şərh edir və Birgə müəssisənin vergi, valyuta və gömrük mövqelərinin müdafiə edilməsi mümkün olacaqdır.

Əsas vəsaitlərin istifadə dəyəri

Birgə müəssisə əsas vəsaitlərin istifadə dəyərinin qiymətləndirmələrini hər hesabat dövrünün sonunda nəzərdən keçirir. Birgə müəssisə əsas vəsaitlərin nəzərdə tutulan istifadəsini, xüsusi əsas vəsait növünə aid olan texnologiyanın inkişafı, eləcə də rəhbərlikdən aktivlərin istifadə müddətlərini və əlaqəli köhnəlməni uzatmağı və ya qısaltmağı tələb edən digər amilləri nəzərə alır.

5. Dividendlər

2018-ci ildə Birgə müəssisə cəmi 115,222,224 AZN (2017-ci il: 200,664,143 AZN) məbləğində dividendlər elan etmişdir. Bir səhm üzrə dividend 416.14 AZN (2017-ci il: 724.72 AZN) məbləğində olmuşdur.

6. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və məhdudlaşdırılmış pul vəsaitləri

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri aşağıdakılardan ibarətdir:

	31 dekabr 2018-ci il	31 dekabr 2017-ci il
Kassada olan pul vəsaitləri	19,042	27,380
Tələbli depozitlər	26,894,889	67,713,389
Digər pul vəsaitlərinin ekvivalentləri	13,133	21,167
Cəmi pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinin ümumi qalığı	**26,927,064**	**67,761,936**
Gözlənilən kredit zərərləri üçün ehtiyat	(62,322)	–
Cəmi pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri	**26,864,742**	**67,761,936**

2.1 saylı Qeyddə göstərildiyi kimi, 9 saylı MHBS-nin dəyişikliklər edilmiş retrospektiv qaydada tətbiqinə uyğun olaraq, 1 yanvar 2018-ci il tarixinə ticarət debitor borcları ilə bağlı ehtiyat bölüşdürülməmiş mənfəətin açılış qalığına təsir göstərməmiş və buna görə, 1 yanvar 2018-ci il tarixinə bölüşdürülməmiş mənfəətin tərkibində tanınmamışdır.

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri daxilində risk xüsusiyyətləri və səviyyələri 22-ci Qeyddə təqdim edilir.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

6. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və məhdudlaşdırılmış pul vəsaitləri (davamı)

Məhdudlaşdırılmış pul vəsaitləri aşağıdakılardan ibarətdir:

	31 dekabr 2018-ci il	31 dekabr 2017-ci il
ƏDV üzrə depozit hesabı	1,269,165	1,293,216
Cəmi məhdudlaşdırılmış pul vəsaitləri	**1,269,165**	**1,293,216**

1 yanvar 2008-ci il tarixindən başlayaraq dövlət vergi orqanları ƏDV depozit hesablarını və bu hesablar vasitəsilə əvəzləşdirilən və hesablanan ƏDV üzrə icbari ödəmələri tətbiq etmişdir. Bu yeni vergi qanunvericiliyinə uyğun olmaq üçün Birgə Müəssisə ƏDV üzrə depozit hesabını açmışdır. Bu qanunvericiliyə uyğun olaraq ƏDV depozit hesabındakı qalıq vergi orqanlarına 45 gün əvvəl bildiriş göndərməklə çıxarılır.

7. Ticarət debitor borcları

Ticarət debitor borcları aşağıdakılardan ibarətdir:

	31 dekabr 2018-ci il	31 dekabr 2017-ci il
Heydər Əliyev adına Neft Emalı Zavodu	22,181,097	-
BP Exploration Limited	10,029,360	73,774,952
Georgian Pipeline Company	6,157,003	-
Technip Italy S.p.A	1,892,366	23,355,870
SCP South Caucasus Pipeline Co.	6,074	15,005,900
Cəmi ticarət debitor borclarının ümumi qalığı	**40,265,900**	**112,136,722**
Gözlənilən kredit zərərləri üçün ehtiyat	(167,109)	-
Cəmi ticarət debitor borcları	**40,098,791**	**112,136,722**

31 dekabr 2017-ci il tarixinə ticarət debitor borclarının ümumi qalığı 112,136,722 AZN olmuşdur. 2.1 saylı Qeyddə göstərildiyi kimi, 9 saylı MHBS-nin dəyişikliklər edilmiş retrospektiv qaydada tətbiqinə uyğun olaraq, 1 yanvar 2018-ci il tarixinə ticarət debitor borcları ilə bağlı ehtiyat bölüşdürülməmiş mənfəətin açılış qalığına təsir göstərməmiş.

Bu ticarət debitor borclarının müddətlər üzrə təhlili aşağıdakı cədvəldə təqdim edilir:

	31 dekabr 2018-ci il	31 dekabr 2017-ci il
3 ayadək	31,177,763	88,780,852
6 aydan 1 ilədək	9,088,137	23,355,870
Cəmi ticarət debitor borclarının ümumi qalığı	**40,265,900**	**112,136,722**

Ticarət debitor borcları daxilində risk xüsusiyyətləri və səviyyələri 22-ci Qeyddə təqdim olunur.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

8. Əlaqəli tərəflə əməliyyatlar

Birgə müəssisənin birbaşa ana şirkəti və yekun nəzarət edən tərəfi, müvafiq olaraq, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) (Azərbaycanda təsis edilmişdir) və Tekfen İnşaat ve Tesisat A.Ş. şirkətidir (Türkiyədə təsis edilmişdir).

Əlaqəli tərəflər üzrə debitor borcları əsas etibarı ilə əməliyyatlardan irəli gəlir və satış tarixindən bir ay sonra ödənilməlidir. Debitor borcları öz təbiətinə görə təminatsızdır və onlara faiz hesablanmır. Əlaqəli tərəflər üzrə kreditor borcları əsasən icarə, əmək haqqı və dividend ödənişlərindən irəli gəlir. Kreditor borcları üzrə faiz hesablanmır.

Birgə müəssisə və digər əlaqəli tərəflər arasında əməliyyatlar və qalıqlar aşağıdakı cədvəldə təqdim olunur.

Əlaqəli tərəflərə satışlar

	31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə	31 dekabr 2017-ci il tarixində başa çatan il üzrə
Heydər Əliyev adına Neft Emalı Zavodu	148,328,407	23,917,103
Əlaqəli tərəflərə cəmi satışlar	**148,328,407**	**23,917,103**

Əlaqəli tərəflər üzrə ticarət debitor borcları

	31 dekabr 2018-ci il	31 dekabr 2017-ci il
Heydər Əliyev adına Neft Emalı Zavodu (bax Qeyd 7)	22,181,097	–
Əlaqəli tərəflər üzrə cəmi ticarət debitor borcları	**22,181,097**	**–**

Əlaqəli tərəflərdən müqavilə aktivləri

	31 dekabr 2018-ci il	31 dekabr 2017-ci il
Heydər Əliyev adına Neft Emalı Zavodu	1,583,575	–
Əlaqəli tərəflərdən cəmi müqavilə aktivləri	**1,583,575**	**–**

Əlaqəli tərəflərdən alınmış avanslar

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

8. Əlaqəli tərəflə əməliyyatlar (davamı)

Əlaqəli tərəflərdən alışlar

	31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə	31 dekabr 2017-ci il tarixində başa çatan il üzrə
Tekfen İnşaat ve Tesisat A.Ş.	5,921,180	765,037
Neft-qaz tikinti tresti	4,103,719	1,454,565
Tekfen Mühendislik A.Ş.	3,782,697	557,734
SOCAR CAPE MMC	2,902,005	1,814,348
SOCAR Petroleum Georgia	2,016,188	708,371
Azneft İstehsalat Birliyi ("Azneft İB")	1,878,285	4,150,612
SOCAR İnformasiya Texnologiyaları və Rabitə İdarəsi	426,515	-
Cənub Tikinti Servis ASC	367,785	3,921,374
Atəşgah Sığorta ASC	151,503	187,459
SOCAR Energy Georgia MMC	4,827	18,532
Azerigaz İstehsalat Birliyi ("Azerigaz İB")	2,246	1,644
Cəmi əlaqəli tərəflərdən alışlar	**21,556,950**	**13,579,676**

Əlaqəli tərəflərə ödəniləcək qalıqlar

	31 dekabr 2018-ci il	31 dekabr 2017-ci il
Tekfen İnşaat ve Tesisat A.Ş.	1,213,635	535,311
SOCAR CAPE MMC	866,067	317,980
Tekfen Mühendislik A.Ş	365,108	415,113
SOCAR İnformasiya Texnologiyaları və Rabitə İdarəsi	133,425	-
SOCAR Petroleum Georgia	33,859	146,736
Cənub Tikinti Servis ASC	5,217	679,585
Azəriqaz İstehsalat Birliyi ("Azəriqaz İB")	416	-
Əlaqəli tərəflər üzrə kreditor borcları	**2,617,727**	**2,094,725**
Tekfen İnşaat ve Tesisat A.Ş.	12,592,593	-
Əlaqəli tərəflərə ödəniləcək dividendlər	**12,592,593**	**-**
Cəmi əlaqəli tərəflərə ödəniləcək qalıqlar	**15,210,320**	**2,094,725**

Birgə müəssisənin əsas rəhbərlik qrupu 31 dekabr 2018-ci və 2017-ci il tarixlərinə üç üzvdən ibarət olmuşdur. İl ərzində direktorlara və əsas rəhbərlik heyətinin digər üzvlərinə ödənişlər aşağıdakı cədvəldə təqdim olunur:

	31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə	31 dekabr 2017-ci il tarixində başa çatan il üzrə
Əmək haqqı və digər qısamüddətli ödənişlər	2,135,002	2,067,326
Cəmi əsas rəhbərlik heyətinə ödənişlər	**2,135,002**	**2,067,326**

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

9. Mal-material ehtiyatları

Mal-material ehtiyatları aşağıdakılardan ibarətdir:

	31 dekabr 2018-ci il	31 dekabr 2017-ci il
Tikinti sahəsində mal-material ehtiyatları (*)	26,947,479	26,811,949
Cəmi mal-material ehtiyatları	**26,947,479**	**26,811,949**

(*) Tikinti sahəsinə çatdırılmış və ya tikinti sahəsində istifadə edilmək üçün ayrılmış, lakin 31 dekabr 2018-ci il tarixinə hələ quraşdırılmamış materialların dəyəri mal-material ehtiyatlarına daxil edilmişdir.

10. Digər debitor borcları və digər cari aktivlər

Digər debitor borcları və digər cari aktivlər aşağıdakılardan ibarətdir:

	31 dekabr 2018-ci il	31 dekabr 2017-ci il
Verilmiş avanslar	3,291,575	10,900,162
Əvəzi ödənilən ƏDV	1,767,768	2,401,655
Digər vergilər üzrə debitor borcları	481,722	–
Digər debitor borcları	2,569,610	1,775,052
Cəmi digər debitor borcları və digər cari aktivlər	**8,110,675**	**15,076,869**

11. Kreditor borcları

Kreditor borcları aşağıdakılardan ibarətdir:

	31 dekabr 2018-ci il	31 dekabr 2017-ci il
Kreditor borcları	24,186,992	66,736,002
Əlaqəli tərəflər üzrə kreditor borcları (bax Qeyd 8)	2,617,727	2,094,725
Digər kreditor borcları	2,246,823	4,009,575
Cəmi kreditor borcları	**29,051,542**	**72,840,302**

Kreditor borcları üzrə faiz hesablanmır.

Kreditor borcları daxilində risk xüsusiyyətləri və səviyyələri 22-ci Qeyddə təqdim olunur.

12. Digər kreditor borcları və hesablanmış xərclər

Digər kreditor borcları və hesablanmış xərclər aşağıdakılardan ibarətdir:

	31 dekabr 2018-ci il	31 dekabr 2017-ci il
Ödəniləcək dividendlər	12,592,593	–
İşçilərə ödəniləcək məbləğ	8,321,664	18,039,473
Ödəniləcək vergi və rüsumlar	4,258,111	52,733
Alınmış avans	2,509,989	11,418,750
Ödəniləcək sosial təminat üzrə mükafatlar	578,413	2,724,105
Digər	1,160,641	–
Cəmi digər kreditor borcları və hesablanmış xərclər	**29,421,411**	**32,235,061**

Digər kreditor borcları və hesablanmış xərclər daxilində risk xüsusiyyətləri və səviyyələri 22-ci Qeyddə təqdim olunur.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

13. Əsas vəsaitlər

Əsas vəsaitlər aşağıdakılardan ibarətdir:

	Binalar	Maşın və avadanlıqlar	Nəqliyyat vasitələri	Mebel və qurğular	Cəmi
Xərclərin dəyəri					
1 yanvar 2017-ci il tarixinə yekun qalıq	**3,124,851**	**58,640,803**	**14,192,743**	**4,484,928**	**80,443,325**
Əlavələr	–	2,877,137	234,648	292,765	**3,404,550**
Silinmələr	–	(519,320)	(2,004,103)	(172,371)	**(2,695,794)**
31 dekabr 2017-ci il tarixinə yekun qalıq	**3,124,851**	**60,998,620**	**12,423,288**	**4,605,322**	**81,152,081**
Əlavələr	–	4,082,756	303,475	75,602	**4,461,833**
Silinmələr	–	(574,336)	(1,174,817)	(257,755)	**(2,006,908)**
ƏV kateqoriyaları arasında köçürmə	–	786,491	335,246	(1,121,737)	**–**
31 dekabr 2018-ci il tarixinə yekun qalıq	**3,124,851**	**65,293,531**	**11,887,192**	**3,301,432**	**83,607,006**
Yığılmış köhnəlmə					
1 yanvar 2017-ci il tarixinə yekun qalıq	**(2,451,423)**	**(33,374,391)**	**(9,461,705)**	**(1,752,696)**	**(47,040,215)**
İl üzrə xərc	(117,418)	(9,133,332)	(1,141,788)	(604,979)	**(10,997,517)**
Silinmələr	–	446,177	1,864,803	139,569	**2,450,549**
31 dekabr 2017-ci il tarixinə yekun qalıq	**(2,568,841)**	**(42,061,546)**	**(8,738,690)**	**(2,218,106)**	**(55,587,183)**
Əlavələr	(122,594)	(5,757,380)	(3,458,217)	(1,099,203)	**(10,437,394)**
Silinmələr	–	413,503	1,115,190	156,539	**1,685,232**
ƏV kateqoriyaları arasında köçürmə	–	(370,670)	(235,619)	606,289	**–**
31 dekabr 2018-ci il tarixinə yekun qalıq	**(2,691,435)**	**(47,776,093)**	**(11,317,336)**	**(2,554,481)**	**(64,339,345)**
31 dekabr 2017-ci il tarixinə balans dəyəri	**556,010**	**18,937,074**	**3,684,598**	**2,387,216**	**25,564,898**
31 dekabr 2018-ci il tarixinə balans dəyəri	**433,416**	**17,517,438**	**569,856**	**746,951**	**19,267,661**

Köhnəlməni hesablamaq üçün aşağıdakı istifadə müddətləri istifadə olunur:

	İstifadə müddəti
Binalar	5-50 il
Maşın və avadanlıq	4-25 il
Nəqliyyat vasitələri	3-13 il
Mebel və qurğular	4-10 il

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

14. Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər aşağıdakılardan ibarətdir:

	Hüquqlar
Xərclərin dəyəri	
1 yanvar 2017-ci il tarixinə yekun qalıq	**690,480**
Əlavələr	71,995
Silinmələr	(226,844)
31 dekabr 2017-ci il tarixinə yekun qalıq	**535,631**
Əlavələr	714,332
Silinmələr	(60,879)
31 dekabr 2018-ci il tarixinə yekun qalıq	**1,189,084**
Yığılmış amortizasiya	
1 yanvar 2017-ci il tarixinə yekun qalıq	**(129,244)**
İl üzrə xərc	(42,186)
Silinmələr	47,354
31 dekabr 2017-ci il tarixinə yekun qalıq	**(124,076)**
İl üzrə xərc	(97,605)
Silinmələr	16,699
31 dekabr 2018-ci il tarixinə yekun qalıq	**(204,982)**
31 dekabr 2017-ci il tarixinə balans dəyəri	**411,555**
31 dekabr 2018-ci il tarixinə balans dəyəri	**984,102**

Amortizasiyanı hesablamaq üçün aşağıdakı istifadə müddətləri istifadə olunur:

	İstifadə müddəti
Hüquqlar	5-15 il

15. Gəlirin vergiyə cəlb olunması

Birgə müəssisə Azərbaycanda müəssisələrə tətbiq olunan vergilərə cəlb olunur. Birgə müəssisənin il və dövrlər üzrə nəticələrinə əsaslanaraq təqdim olunan maliyyə hesabatlarında qiymətləndirilmiş vergi məbləği üçün ehtiyat ayrılır.

Müəssisədən tutulan vergi gəlirdən çıxılmayan xərcləri əlavə etməklə və vergiyə cəlb olunmayan gəliri çıxmaqla yerli qanunvericiliyə uyğun olan uçot mənfəətindən hesablanan, müəssisənin vergiyə cəlb olunan gəlirinə tətbiq olunur.

Azərbaycan Respublikasında müəssisənin gəlir vergisi üzrə avans ödənişlər hər rüb həyata keçirilir. 2018-ci ildə müəssisənin gəlir vergisinin dərəcəsi 20% (2017-ci il% 20%) olmuşdur.

Azərbaycanın vergi sistemi iki alternativ vergi rejimindən ibarətdir: Vergi Məcəlləsinin tənzimlədiyi vergi rejimi və Hasilatın Pay Bölgüsü haqqında Sazişlərin (HPBS-lər) tənzimlədiyi vergi rejimi.

Bundan əlavə, Azərbaycan Respublikası və ƏİBK (Əsas ixrac boru kəməri) layihəsinin iştirakçıları (SOCAR, BP, TotalFinaElf, LUKAgip, NICO, Statoil və TPOC) tərəfindən imzalanmış CQBK (Cənubi Qafqaz Boru Kəməri) Əsas Boru Kəməri haqqında Saziş fərqli vergi qaydalarını nəzərdə tutur.

Azərbaycan Respublikasında mövcud olan vergi növlərinə, digərləri ilə yanaşı, mənfəət vergisi, əlavə dəyər vergisi, əmlak vergisi və əmək haqqı üzrə vergilər (şəxsi mənfəət vergisi və məcburi dövlət sosial təminat ayırmaları) daxildir. Çox az presedentlər mövcud olan Azərbaycan qanunvericiliyi və təcrübəsi nisbətən yeni olduğu üçün, qanunların və şərhlərin sürətlə dəyişə biləcəyini, bunun da qeyri-müəyyənlik və ziddiyyətli məqamlar yarada bilməsini başa düşmək lazımdır.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

15. Gəlirin vergiyə cəlb olunması (davamı)

Vergi bəyannamələri, eləcə də digər tənzimləyici sahələr (məsələn, gömrük və valyuta nəzarəti məsələləri) qanunla cərimələr, tutumlar və faiz ödənişləri tətbiq edə bilən bir sıra müxtəlif orqanların təhlili və araşdırmasına tabedir. Bu faktlar Azərbaycan Respublikasında vergi risklərini yarada bilər.

Vergi öhdəlikləri ilə bağlı vergi yoxlaması və gömrük yoxlamaları yoxlama ilindən əvvəlki üç təqvim ili üzrə aparıla bilər.

31 dekabr tarixində başa çatan il üzrə gəlir vergisi xərclərinin əsas komponentləri aşağıdakılardır:

	2018	2017
Cari vergi xərci	4,520,741	39,234,172
Təxirə salınmış vergi xərci	7,740,192	1,147,581
Cəmi vergi xərci	**12,260,933**	**40,381,753**

İl üzrə cəmi xərc uçot mənfəəti ilə aşağıdakı kimi üzləşdirilə bilər:

Mənfəət vergisi vergi tutulan gəlir üzrə hesablanır, bu isə MHBS tələbindən əhəmiyyətli dərəcədə fərqlənir. Aşağıdakı cədvəldə yerli standartlara uyğun olan vergi dərəcəsinin 31 dekabr 2018-ci və 2017-ci il tarixlərində başa çatan illər üzrə effektiv vergi dərəcəsi ilə üzləşdirilməsi təqdim olunur.

	2018	2017
Vergidən əvvəlki mənfəət	**113,880,583**	**220,215,372**
Yerli standartlara uyğun vergi dərəcəsi	20%	20%
Yerli standartlara uyğun vergi dərəcəsi ilə gözlənilən mənfəət vergisi xərci	**22,776,117**	**44,043,074**
Vergiyə təsir:		
- vergiyə cəlb olunmayan gəlir	(12,375,549)	(4,774,554)
- gəlirdən çıxılmayan xərclər	2,203,986	1,592,486
- digər	(343,621)	(479,253)
Mənfəət və ya zərər və digər ümumu gəlir haqqında hesabatda təqdim olunan mənfəət vergisi xərci	**12,260,933**	**40,381,753**

31 dekabr 2018-ci və 2017-ci il tarixlərində başa çatan illər üzrə cari vergi qalıqlarında hərəkət aşağıdakı kimi olmuşdur:

	2018	2017
1 yanvar tarixinə açılış balansı	**7,486,232**	**(25,175,110)**
Mənfəət və ya zərərə aid edilmişdir	(4,520,741)	(39,234,172)
İl ərzində ödənilmiş mənfəət vergisi	15,001,250	71,895,514
31 dekabra yekun balans	**17,966,741**	**7,486,232**

Birgə müəssisə təxirə salınmış vergi aktivləri və öhdəliklərini MHBS məqsədləri üçün təqdim olunmuş maliyyə hesabatları və yerli standartlara uyğun vergi məqsədləri üçün hesabatlar arasında yaranan müvəqqəti fərqlər əsasında tanıyır. Bu fərqlər adətən MHBS və vergi məqsədləri üçün müxtəlif hesabat dövrlərində gəlirlərin və xərclərin tanınması ilə nəticələnir və aşağıda təqdim olunur.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

15. Gəlirin vergiyə cəlb olunması (davamı)

MHBS-yə uyğun maliyyə hesabatları və vergi məqsədləri üçün maliyyə hesabatları arasında müvəqqəti fərqlər 31 dekabr 2018-ci və 2017-ci il tarixlərinə aşağıdakı təxirə salınmış vergi (öhdəliklərinin)/aktivlərinin əmələ gəlməsinə səbəb olmuşdur.

	31 dekabr 2018-ci il	31 dekabr 2017-ci il
Debitor borclar	7,540,505	-
Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin köhnəlmə/amortizasiya fərqləri	1,315,705	562,519
Digər debitor borcları və cari aktivlər	(217,752)	(330,996)
Digər kreditor borcları və hesablanmış xərclər	(1,474,108)	1,827,158
Müqavilə aktivləri və müqavilə öhdəlikləri, xalis	(8,791,548)	-
Müqavilə xərcləri və aralıq hesablar, xalis	-	4,054,313
Xalis təxirə salınmış vergi (öhdəlikləri)/aktivləri	**(1,627,198)**	**6,112,994**

31 dekabr 2018-ci və 2017-ci il tarixlərində başa çatan illər üzrə təxirə salınmış vergi (öhdəliklərində)/aktivləri hərəkət aşağıdakı kimi olmuşdur:

	2018	2017
1 yanvar tarixinə açılış balansı	**6,112,994**	**7,260,575**
Mənfəətə və ya zərərlərə aid edilmişdir	(7,740,192)	(1,147,581)
31 dekabra yekun balans	**(1,627,198)**	**6,112,994**

16. Nizamnamə fondu

Birgə müəssisənin buraxılmasına icazə verilmiş ilkin nizamnamə fondu 1996-cı ildə 100,000 ABŞ dolları olmuşdur. Həm SOCAR, həm də Tekfen 1997, 1998, 1999 illərdə nizamnamə fonduna əlavə qoyuluşlar etmişlər.

2018 və 2017 illərin dekabr ayına səhm kapitalı aşağıdakı kimi olmuşdur:

Səhmdarlar	%	31 dekabr 2018-ci il	%	31 dekabr 2017-ci il
SOCAR	60%	165,497	60%	165,497
TEKFEN	40%	111,388	40%	111,388
Nominal kapital	**100%**	**276,885**	**100%**	**276,885**

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

17. Müştərilərlə müqavilələrdən əldə edilən gəlirlər

Gəlirlər üzrə məlumatın açıqlaması

Birgə müəssisə üzrə gəlirlərin seqmentlər üzrə təhlili aşağıdakı kimidir:

Seqmentlər	31 dekabr 2018-ci il tarixində başa çatan il üzrə Tikinti	 Cəmi
Mal və ya xidmət növü		
Tikinti	512,387,767	**512,387,767**
Müştərilərlə müqavilələrdən əldə edilən cəmi gəlirlər	**512,387,767**	**512,387,767**
Coğrafi bazarlar		
Azərbaycan	421,320,465	**421,320,465**
Gürcüstan	91,067,302	**91,067,302**
Müştərilərlə müqavilələrdən əldə edilən cəmi gəlirlər	**512,387,767**	**512,387,767**
Gəlirlərin tanınması vaxtı		
Müəyyən müddət ərzində ötürülmüş mallar	512,387,767	**512,387,767**
Müştərilərlə müqavilələrdən əldə edilən cəmi gəlirlər	**512,387,767**	**512,387,767**

Seqmentlər	31 dekabr 2017-ci il tarixində başa çatan il üzrə Tikinti	 Cəmi
Mal və ya xidmət növü		
Tikinti	797,578,020	**797,578,020**
Müştərilərlə müqavilələrdən əldə edilən cəmi gəlirlər	**797,578,020**	**797,578,020**
Coğrafi bazarlar		
Azərbaycan	722,804,245	**722,804,245**
Gürcüstan	74,773,775	**74,773,775**
Müştərilərlə müqavilələrdən əldə edilən cəmi gəlirlər	**797,578,020**	**797,578,020**
Gəlirlərin tanınması vaxtı		
Müəyyən müddət ərzində ötürülmüş mallar	797,578,020	**797,578,020**
Müştərilərlə müqavilələrdən əldə edilən cəmi gəlirlər	**797,578,020**	**797,578,020**

Birgə müəssisənin müştərilər üzrə gəlirlərinin təhlili aşağıdakı cədvəldə təqdim edilir:

Müştərilər	2018	2017
Heydər Əliyev adına Neft Emalı Zavodu	148,328,407	23,917,103
SCP South Caucasus Pipeline Co.	134,160,779	186,355,782
BP Exploration Limited	118,204,161	561,846,017
Georgian Pipeline Company	56,610,545	–
Technip Italy S.p.A.	39,620,970	14,502,236
Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti	15,066,009	–
Saipem Contracting Netherlands B.V.	343,971	102,198
WorleyParson Europe Limited	52,925	538,987
Boskalis Offshore Subsea Contracting B.V.	–	9,542,275
AMEC Services Limited	–	773,422
Müştərilərlə müqavilələrdən əldə edilən cəmi gəlirlər	**512,387,767**	**797,578,020**

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

17. Müştərilərlə müqavilələrdən əldə edilən gəlirlər (davamı)

Müqavilə qalıqları

	31 dekabr 2018-ci il
Ticarət debitor borcları (Qeyd 7)	40,098,791
Müqavilə aktivləri	44,616,250
Müqavilə öhdəlikləri	-
37 saylı MUBS əsaslında yüklü müqavilələr üzrə ehtiyatın qalığı	(24,511)

18. Müqavilə xərcləri

Birgə müəssisənin il üzrə müqavilə xərclərinin təhlili aşağıdakı cədvəldə təqdim edilir:

	2018	2017
Əmək haqqı	(94,401,708)	(170,587,680)
Materiallar	(79,962,686)	(76,641,864)
Xidmət xərcləri	(73,819,995)	(71,864,595)
Maşın-mexanizm xidmətləri	(55,605,998)	(112,777,675)
Nəqliyyat xərcləri	(14,525,579)	(29,642,801)
Texniki xərclər	(10,797,127)	(11,848,918)
ƏV köhnəlməsi	(10,350,748)	(10,955,870)
Yemək xərcləri	(9,713,445)	(5,508,224)
Yanacaq xərcləri	(6,048,186)	(8,697,258)
Bank xərcləri	(4,342,073)	(4,337,051)
İcarə xərcləri	(3,803,610)	(6,236,767)
Səyahət xərcləri	(3,791,228)	(3,247,592)
Mühəndislik xərcləri	(3,686,649)	(1,984,553)
Sığorta xərcləri	(3,587,977)	(5,387,840)
Yoxlama xərcləri	(3,573,776)	(4,115,022)
Tibb xərcləri	(3,060,966)	(4,792,444)
Zibilin basdırılması	(3,054,531)	(2,188,216)
Ezamiyyə xərcləri	(2,162,930)	(2,905,761)
Təhlükəsizlik xərcləri	(1,508,064)	(451,170)
Gömrük	(876,115)	(427,822)
Kommunikasıya xərcləri	(679,689)	(504,742)
Ofis xərcləri	(677,481)	(530,336)
İdxal vergisi	(612,004)	-
Kommunal xərclər	(453,628)	(1,284,721)
Təlim xərcləri	(265,792)	(1,245,252)
Mal-material ehtiyatların silinməsi	-	(11,462,235)
Digər	(2,897,534)	(4,706,423)
Cəmi müqavilə xərcləri	**(394,259,519)**	**(554,332,832)**

19. İnzibati xərclər

Birgə müəssisənin il üzrə inzibati xərclərinin təhlili aşağıdakı cədvəldə təqdim olunur:

	2018	2017
İşçilərə ödənişlər üzrə xərclər	(4,859,090)	(4,719,742)
Ofis xərcləri	(99,158)	(81,459)
Köhnəlmə və amortizasiya	(75,693)	(50,600)
İstifadə edilməmiş məzuniyyət	(75,221)	(459,786)
Səyahət xərcləri	(38,627)	(45,656)
Digər inzibati xərclər	(554,227)	(1,173,938)
Cəmi inzibati xərclər	**(5,702,016)**	**(6,531,181)**

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

20. Xarici valyuta mövqeyi

Birgə müəssisənin 31 dekabr 2018-ci və 2017-ci il tarixlərinə xarici valyuta mövqeyi aşağıdakı kimi olmuşdur:

	31 dekabr 2018-ci il			31 dekabr 2017-ci il		
	AZN ABŞ dolları ilə ekvivalenti	AZN Avro ilə ekvivalenti	AZN BB funtu ilə ekvivalenti	AZN ABŞ dolları ilə ekvivalenti	AZN Avro ilə ekvivalenti	AZN BB funtu ilə ekvivalenti
Kassa və banklar	17,009,695	2,991,781	72,393	48,119,518	4,714,053	30,919
Ticarət debitor borcları	16,186,363	-	-	82,329,930	24,442,409	-
Ticarət kreditor borcları	(1,556,258)	(2,335,529)	(1,174,173)	(10,641,578)	(8,001,663)	(297,014)
Xalis xarici valyuta mövqeyi	**31,639,800**	**656,252**	**(1,101,780)**	**119,807,870**	**21,154,799**	**(266,095)**

21. Təəhhüdlər və əməliyyat mühiti

Əməliyyat mühiti

Birgə müəssisənin əməliyyatları Azərbaycan Respublikasında həyata keçirilir. Yeni inkişaf edən bazar iqtisadiyyatı dövləti olduğu üçün, Azərbaycan Respublikası hal-hazırda daha yetkin bazar iqtisadiyyatına xas olan inkişaf etmiş biznes və tənzimləyici infrastrukturu yaratmaqdadır.

Azərbaycan iqtisadi islahatları aparmağa və hüquqi, vergi və nizamlayıcı infrastrukturu təkmilləşdirməyə davam edir. Azərbaycan iqtisadiyyatının gələcək sabitliyi önəmli dərəcədə islahatlardan, Hökumətin gördüyü iqtisadi, maliyyə və monetar tədbirlərinin effektivliyindən, xam neftin qiymətindən və Azərbaycan manatının sabitliyindən asılıdır.

Azərbaycan iqtisadiyyatı neft qiymətlərinin aşağı düşməsi və Azərbaycan manatının 2015-ci il ərzində devalvasiyasının mənfi təsirinə məruz qalmışdır. Bu, kapital əldə etmək imkanlarının məhdudlaşması, kapital dəyərinin artması, inflyasiya və iqtisadi artımın qeyri-müəyyənliyi kimi amillərə səbəb olmuşdur.

Bu çətinliklərə cavab olaraq, Azərbaycan hökuməti islahatları sürətləndirmək və maliyyə sisteminə dəstək vermək planlarını açıqlamışdır. 6 dekabr 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti *"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"ni* təsdiqləmişdir. Yol xəritəsi 2016-2020-ci illərdə inkişaf strategiyasını, 2025-ci ilə qədər uzunmüddətli perspektivləri və 2025-ci ildən sonrakı dövrə nəzəri əhatə edir.

Bundan əlavə, 2018-ci ildə hökumət sərt pul siyasətini davam etdirmiş, eləcə də Azərbaycan manatının stabilləşdirilməsinə xarici valyuta ehtiyatları ayırmışdır. Bu siyasətin 2018-ci ildə makroiqtisadi sabitliyin qorunması məqsədi ilə davam etdirilməsi gözlənilir.

Birgə müəssisənin rəhbərliyi cari şəraitdə baş verən bu cür dəyişiklikləri izləməkdədir və Birgə müəssisənin yaxın gələcəkdə fəaliyyətinin davamlılığı və inkişafını dəstəkləmək üçün lazım hesab etdiyi ehtiyat tədbirlərini görməkdədir.

Müqavilə üzrə öhdəliklər

Qüsurlarla bağlı öhdəlik

Müştərilərlə imzalanmış razılaşmalar əsasında Birgə müəssisə müqavilə üzrə biznes əməliyyatları üçün zəmanət təqdim edir. Həmin razılaşmalarda Birgə müəssisə yerinə yetirilmiş bütün işlər üçün zəmanət müddəti ərzində zəmanət verir. Müştəri hər hansı bir qüsurun olmasını sübuta yetirərsə, Birgə müəssisə bərpa işlərini aparmalı və əlaqəli xərcləri çəkməlidir.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

21. Təəhhüdlər və əməliyyat mühiti (davamı)

Müqavilə üzrə öhdəliklər (davamı)

Yubanmalar üçün cərimə

Müştərilərlə imzalanmış razılaşmalar əsasında Birgə müəssisə işin hər hansı hissəsini əvvəlcədən müəyyən edilmiş ödəmə tarixlərində təqdim edə bilməsə, müştərilərə bu pozuntu ilə bağlı yubanma üçün cərimə ödəməlidir.

Bank zəmanətləri

31 dekabr 2018-ci il tarixinə Birgə müəssisənin üçüncü tərəflərin xeyrinə məbləği 113 milyon ABŞ dolları, 12 milyon Avro və 47 milyon AZN (264 milyon AZN) (31 dekabr 2017-ci il: 130 milyon ABŞ dolları (221 milyon AZN)) olan bank zəmanətləri olmuşdur.

Digər

Bütün xarici ölkələrdə maliyyə və siyasi mühit Birgə müəssisənin həmin ölkələrdə əməliyyat və maliyyə vəziyyətinə təsir göstərə bilər. 31 dekabr 2018-ci və 2017-ci il tarixlərinə Birgə müəssisənin rəhbərliyi hesab edir ki, təqdim edilən maliyyə hesabatlarına təsir göstərə biləcək əhəmiyyətli maliyyə və ya siyasi məsələ baş verməmişdir.

22. Maliyyə riskinin idarə edilməsinin məqsəd və prinsipləri

Maliyyə alətləri və ədalətli dəyərlər

Ədalətli dəyərlərinin dəyişməsi maliyyə hesabatlarında əks etdirilməmiş maliyyə alətlərinin balans dəyəri onların ədalətli dəyərlərini təxmin edir.

Birgə müəssisənin maliyyə alətlərindən irəli gələn əsas risklər – bazar riski, kredit riski və likvidlik riskidir. Rəhbərlik, aşağıda icmal edilən bu risklərin hər birinin idarə edilməsi prinsiplərini nəzərdən keçirir və razılaşdırır:

- Bazar riski – maliyyə alətinin gələcək pul vəsaitləri hərəkətinin ədalətli dəyərinin bazar qiymətlərindəki dəyişikliklərə görə dəyişməsi riskidir. Bazar qiymətləri dörd risk növünü əhatə edir: faiz dərəcəsi riski, valyuta riski, malın qiyməti riski və digər qiymət riski, misal üçün, səhm qiyməti riskidir. Şirkət yalnız valyuta riskinə məruz qalır.
- Kredit riski – qarşı-tərəflərin maliyyə aləti və ya müştəri müqaviləsi əsasında öhdəliklərini yerinə yetirməməsi və nəticədə maliyyə zərərinin yaranması riskidir.
- Likvidlik riski – müqavilə ilə nəzərdə tutulmuş qalan ödəmə müddətini göstərən maliyyə öhdəlikləri üçün ödəmə müddətinin təhlilini və Şirkət tərəfindən məxsusi likvidlik riskinin idarə edilməsini göstərir.

Maliyyə riski amilləri

Birgə müəssisənin əməliyyatları onu müxtəlif maliyyə risklərinə məruz qoyur (o cümlədən valyuta riski, ədalətli dəyər riski, pul vəsaitlərinin hərəkəti riski və qiymət riski), kredit riski və likvidlik riski. Birgə müəssisənin ümumi riskin idarə edilməsi proqramı maliyyə bazarlarının gözlənilməzliyinə diqqət yetirir və Birgə müəssisənin maliyyə fəaliyyətinə potensial mənfi təsirləri minimuma endirməyə çalışır.

Xarici valyuta riskinin idarə edilməsi

Birgə müəssisə xarici valyuta ilə ifadə edilmiş müəyyən əməliyyatları həyata keçirir və beləliklə də, valyuta məzənnəsinin dəyişməsi riskinə məruz qalır. Valyuta məzənnələri ilə bağlı risk forvard valyuta müqavilələri istifadə edilməklə təsdiq edilmiş siyasət parametrləri çərçivəsində idarə olunur.

Hesabat tarixində Birgə müəssisənin xarici valyutada göstərilmiş monetar aktivləri və monetar öhdəliklərinin balans dəyəri 20 saylı qeyddə açıqlanır.

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

22. Maliyyə riskinin idarə edilməsinin məqsəd və prinsipləri (davamı)

Xarici valyutaya həssaslıq

Birgə müəssisə ABŞ dolları və avrodan irəli gələn xarici valyuta riskinə məruz qalır.

Aşağıdakı cədvəldə Birgə müəssisənin 31 dekabr 2018-ci il tarixinə AZN-in müvafiq xarici valyutalara qarşı məzənnəsinin 14% artması (31 dekabr 2017-ci il: 11.3%) və 3% azalmasına (31 dekabr 2017-ci il: 11.3%) həssaslığı göstərilir. İstifadə edilmiş həssaslıq dərəcələri mümkün dəyişikliklərin rəhbərlik tərəfindən qiymətləndirilməsini əks etdirir. Həssaslıq təhlili yalnız mövcud xarici valyuta ilə ifadə edilmiş monetar aktivləri əhatə edir və onların dövrün sonunda xarici valyuta dərəcələrində dəyişiklikləri əks etdirməklə çevrilməsi məqsədilə düzəlişlər aparır.

	ABŞ dollarına təsir		Avroya təsir	
Mənfəətə təsir	**2018**	**2017**	**2018**	**2017**
Artım	4,436,982	13,538,289	91,875	2,390,492
Azalma	(950,782)	(13,538,289)	(19,688)	(2,390,492)

(i) Bu əsas etibarı ilə Birgə müəssisədə ilin sonuna ABŞ dolları və avro ilə mövcud olan debitor və kreditor borclarına aiddir.

Kredit riski

Kredit riski qarşı-tərəfin maliyyə aləti və ya müştəri müqaviləsinə əsasən öz öhdəliklərini yerinə yetirməməsi və nəticədə maliyyə zərərinin yarana bilməsi riskidir. Birgə müəssisə kredit riskinə əməliyyat fəaliyyəti (əsasən ticarət debitor borcları) və maliyyələşdirmə fəaliyyəti (o cümlədən banklardan alınmış depozitlər) nəticəsində məruz qalır.

Birgə müəssisə yalnız tanınmış və nüfuzlu tərəflərlə əməliyyatlar apardığından ticarət debitor borcları, pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri (kassada olan pul vəsaitləri istisna olmaqla) ilə bağlı risk dərəcəsini aşağı səviyyədə qiymətləndirir. Birgə müəssisənin kredit riskinin maksimal həcmi ümumi şəkildə maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin balans dəyərində əks etdirilir.

Birgə müəssisə pul vəsaitlərini yaxşı maliyyə vəziyyəti olan və borclara yaxşı xidməti edən bankda yerləşdirir.

Likvidlik riskinin idarə edilməsi

Likvidlik riskinin idarə edilməsi üçün əsas məsuliyyəti Birgə müəssisədə qısa, orta və uzunmüddətli maliyyələşdirmənin və likvidliyin idarə edilməsi tələblərinə dair müvafiq likvidlik riskinin idarə olunması sistemini yaratmış idarə heyətinin üzərinə düşür. Birgə müəssisə, proqnozları və faktiki pul vəsaitlərinin hərəkətini davamlı şəkildə izləmək və maliyyə aktivlərinin və öhdəliklərinin ödəmə profillərini uyğunlaşdırmaqla adekvat ehtiyatları və bank vasitələrini saxlayaraq likvidlik riskini idarə edir.

Aşağıdakı cədvəllərdə Birgə müəssisənin qeyri-törəmə maliyyə öhdəlikləri üzrə qalan ödəmə müddətləri göstərilir. Cədvəllər Birgə müəssisə ödəmə aparmalı olduğu ən erkən tarixdə maliyyə öhdəlikləri üzrə diskontlaşdırılmış pul vəsaitlərinin hərəkəti əsasında hazırlanmışdır. Cədvəllərə faiz və əsas məbləğ üzrə pul vəsaitlərinin hərəkəti daxildir.

2018	**1 aydan 3 aya qədər**	**3 aydan 1 ilə qədər**	**Cəmi**
Ticarət kreditor borcları	29,051,542	–	**29,051,542**

2017	**1 aydan 3 aya qədər**	**3 aydan 1 ilə qədər**	**Cəmi**
Ticarət kreditor borcları	72,840,302	–	**72,840,302**

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə edilir)

22. Maliyyə riskinin idarə edilməsinin məqsəd və prinsipləri (davamı)

Kapital riskinin idarə edilməsi

Birgə müəssisə öz kapitalını idarə edir və hesab edir ki, yaxın gələcəkdə fəaliyyətinə davam edərək, maraqlı tərəflərin əldə etdiyi gəliri artırmağa müvəffəq olacaq.

Birgə müəssisənin ümumi strategiyası 2017-ci ildən etibarən dəyişməmişdir.

23. Hesabat dövründən sonra baş vermiş hadisələr

1 Aprel 2019-cu ildə Birgə müəssisə BP Exploration (Caspian Sea) Limited şirkəti ilə üst hissələr və qazma qurğularının istehsalı üçün 15,850,000 ABŞ dolları həcmində yeni xidmət tapşırığını imzalamışdır.